YAĞIŞLAR ŞƏHƏRİNİN KİTABXANASI VƏ DİGƏR HEKAYƏLƏR



БИБЛИОТЕКА ГОРОДА ДОЖДЕЙ И ДРУГИЕ РАССКАЗЫ

Сборник
Шахназ Новруз Камалова

Yağışlar şəhərinin kitabxanası və digər hekayələr / Библиотека города дождей и другие рассказы

Серия «Билингва»

http://www.litres.ru/pages/biblio_book/?art=74955311
Yağışlar şəhərinin kitabxanası və digər hekayələr. Tərtibatçı Şahnaz Kamalova / Библиотека города дождей и другие рассказы. Составитель Шахназ Камалова / Книга для чтения на азербайджанском и русском языках: Каро; Санкт-Петербург; 2026
ISBN 978-5-9925-2185-6

Аннотация

Детство – дождливая пора. Нигде в мире больше нет такой ласковой бодрой измороси. Нигде больше нет таких библиотек, как ваша первая. Возвращаясь в старую библиотеку, приготовьтесь к встрече с забытыми мечтами и надеждами, ведь заветное желание – выбрать самую счастливую из тысячи дорог – исполняется не у всех. Не бойтесь, с возрастом обретается нечто большее – способность увидеть ценность простых вещей: старой

телефонной будки, пожелтевшего формуляра, запаха старых книг и памяти о тех, кто когда-то помог нам задуматься о главном.

В сборнике собраны рассказы современных азербайджанских писателей. Написанные в разных жанрах и стилях, эти рассказы помогут вам составить первое представление о богатстве и разнообразии современной азербайджанской прозы, её проблематике, стилистических поисках и художественных достижениях.

В книге присутствует нецензурная брань!

Содержание

Tərtibçinin ön sözü / Предисловие 6
Sevinc Nuruqızı. Telefon köşkündəki pişik 10
Nərmin Kamal. Əyləncə 14
İlqar Rəsul 25
Əli Babazadə. Yağışlar şəhərinin kitabxanası 38
Həmid Piriyevin. Qafqaz rəqqası 50
Ataqam. Gecəgörənlər 57
Tural Turan. Xalça oğrusu 67
Fidan Vahid. Əyri kölgə 71
Конец ознакомительного фрагмента. 72

Yağışlar şəhərinin kitabxanası və digər hekayələr. Tərtibatçı Şahnaz Kamalova
Библиотека города дождей и другие рассказы. Составитель Шахназ Камалова
Книга для чтения на азербайджанском и русском языках

© Камалова Ш., сост., 2026
© Каро, 2026

* * *

Tərtibçinin ön sözü / Предисловие

С большинством переводчиков, тексты которых опубликованы в этом сборнике, я познакомилась, когда они учились на четвёртом курсе, были студентами кафедры тюркской филологии Восточного факультета Санкт-Петербургского государственного университета (СПбГУ). Благодаря усилиям и высокому профессионализму преподавателей кафедры эти студенты уже владели турецким языком на достаточно высоком уровне и были знакомы с турецкой литературой. Полученные знания помогли им в освоении азербайджанского языка. Как известно, турецкий и азербайджанский языки относятся к огузской ветви тюркской языковой группы, – это очевидная причина, по которой их нередко изучают вместе. В то время я преподавала на кафедре азербайджанский язык.

Удостоверившись, что им хватит знаний, лингвистических навыков и общего кругозора, я решила познакомить студентов с образцами новейшей азербайджанской литературы, а также на практике изучить грамматические и лексические различия между азербайджанским и турецким языками. Схватывая всё налету, залпом выучив наизусть несколько стихотворений, студенты скоро могли блеснуть знанием азербайджанской поэзии и приступили к чтению прозы. В процессе совместного чтения рассказов у меня возникла идея: почему бы им не перевести короткую прозу со-

временных азербайджанских авторов самостоятельно? Будущие переводчики с радостью согласились.

Мы вместе разбирали переведенные произведения, проводили семинары, обменивались мнениями. В ходе чтения особое внимание уделяли тонкостям и приемам художественного перевода.

Когда я убедилась, что переводы выполнены добротно, родилась новая идея – издать эти тексты. Таким образом мы, с одной стороны, познакомили бы русскоязычного читателя с новейшей азербайджанской литературой, а с другой – у тех, кто изучает азербайджанский язык, появилась бы возможность изучить актуальную лексику и грамматику азербайджанского языка, сравнив текст на двух языках. Учитывая, что подобных книг на азербайджанском языке на российском рынке крайне мало, мы решили, что наша инициатива окажется удачной и востребованной.

Студенты согласились и продолжили работу с еще большим энтузиазмом.

К этому проекту, начатому вместе со студентами-бакалаврами, я захотела привлечь и моих бывших студентов – Валерию Колотову и Альфреда Шульца, специализирующихся в области изучения истории Азербайджана и продолжающих обучение в магистратуре по направлению «Азербайджановедение». Они также с готовностью приняли моё предложение, и каждый из них перевёл по одному рассказу.

Что касается выбора рассказов – мы обратились исключи-

тельно к новейшей азербайджанской литературе. Принимая во внимание, что переводчики – молодые студенты, я уверена что и им, и читателям будет интересно узнать как пишут молодые авторы в современном Азербайджане.

В процессе отбора мы также следили за тем, чтобы рассказы относились к разным жанрам. На страницах этой книги вы встретите образцы как реализма, так и постмодернизма. Написанные в разном духе и стиле, эти рассказы помогут вам сформировать определённое представление об обобщённом облике современной азербайджанской литературы.

Мы не ставили перед собой задачи собрать исчерпывающую антологию – подобная задача потребовала бы значительно больших усилий и иного методологического подхода. Наша цель скромнее и вместе с тем не менее существенна: предложить читателю достаточно репрезентативную выборку текстов, позволяющую составить первое представление о богатстве и разнообразии современной азербайджанской прозы, её проблематике, стилистических поисках и художественных достижениях.

Хочется надеяться, что эта книга послужит не только введением в современную азербайджанскую литературу для тех, кто с ней незнаком, но и станет поводом для более широкой дискуссии – о путях национальных литератур в совеременном мире, о природе культурной памяти, о том, что значит писать и читать сегодня.

Выражаю глубокую благодарность преподавательскому

составу кафедры тюркской филологии СПбГУ под руководством Н. Н. Телицина – людям, чей непосредственный труд воплотился в этой книге! Благодаря полученным от профессионалов знаниям студенты, освоившие турецкий язык на высоком уровне, смогли в короткие сроки овладеть тонкостями азербайджанского языка.

Сердечная благодарность издательству «КАРО» за поддержку нашей идеи! В то время, когда интерес русскоязычных читателей к азербайджанскому языку и культуре возрастает, наша книга станет своеобразным компасом для тех, кто только открывает для себя пространство азербайджанской литературы.

К.ф.н. Камалова Шахназ

Sevinc Nuruqızı. Telefon köşkündəki pişik

Bu telefon köşkü çox köhnəydi… Rəngi bozarmışdı. Qapısı güclə örtülürdü. Telefon dəstəyi də yerində deyildi… Sallanmışdı. Köşk gecələr səhərədək kimisə gözləyirdi. Amma neçə vaxt idi ki, qapısını açan, içəri girib onun sallanan dəstəyini qaldırıb yerinə qoyan, içinə qəpik salıb, həyəcanla nömrə yığan bir kimsə yox idi.

Gecə külək əsəndə aşağı sallanan dəstəyi o tərəf, bu tərəfə yellənir, ətrafa səs salırdı. Külək kəsəndə isə sakitləşir və günlərlə yerindən tərpənmirdi…

Gecələr səmada ulduzlar parıldayanda köhnə köşk yadına keçən günləri salırdı… Bir vaxtlar o təptəzə idi. Hündür, yaraşıqlı. Qırmızı rəngdə… Parıltılı. Qapısı bir dəqiqə bağlı qalmazdi. İçinə o qədər insan girib-çıxırdı ki. Hətta bəzən növbə gözləyənlər də olurdu. Kimsə içəri girir, əvvəlcə dəliyə qəpik qoyur, sonra rəqəmlərin üstündəki dairəni fırladır və «çıqq» – qəpik düşürdü. Hər qəpik düşəndə köşk sevinirdi. Deməli, nömrəsi yığılan ünvandan cavab gəldi.

– Alo, alo, təcili tibbi yardımdır?! Tez gəlin, xahiş edirəm…

Dut-dut-dut…

– Alo, salam Leyla, mənəm,əsmər. Sən bügünkü məsələni həll edə bilmisən? Məndə cavabı alınmır…

– Alo, bizim binanın işığı yanmır…

– Alo, yanğınsöndürəndir? Tez olun… Özünüzü çatdırın. Qonşu evdə yanğın var….

Köşk etdiyi xeyirxahlıqları düşünəndə həmişə gülümsəyirdi… Bilirsiniz, onun telefon cihazı nə qədər insanların həyatını xilas etmişdi?! Təcili yardım, yanğınsöndürən, polis çağıran, dostu, tanışı ilə söhbətləşən, xəbər alan, xəbər verən…

İnsanlar hər dəfə onun yanından keçəndə minnətdarlıqla gülümsəyir və deyirdilər: «Sağ ol, sevimli telefon köşkü».

Sonra illər keçdi. Bütün mənzillərə telefon xətti çəkildi. İndi insanlar çox gec-gec onun qapısını açırdılar. Yol keçəndə təcili hara isə zəng etmək istəyən kimsə gəlir, zəng edir və gedirdi… Daha növbəyə duranlar da yox idi…

Getdikcə gec-gec gələnlər heç gəlmədi. Çünki daha çevik bir əlaqə cihazı – mobil telefon ixtira edilmişdi. Mobil telefonlar… İndi insanlar telefonu ciblərində daşıyırdılar… Təcili zəng üçün nə köşkə girirdilər, nə evə gedirdilər. Çünki telefonlar onlarla birlikdə işə, mağazaya, parka gedirdi. Sonra kompüter, internet, onlayn yazışmalar…

Artıq bəzi yerlərdə yeni, daha müasir küçə telefon cihazları quraşdırılmışdı.

Və günlərin bir günü insanlar gəldi. Zəng etməyə yox… Köşkü çıxardıb aparmağa. Qaldırıcı kranla onu yerindən götürüb şəhərdən çox uzağa, dəmir parçaları, köhnə avtomobil, tramvay və traktorlar, lazımsız soyuducu və televizorlar atılan yerə qoydular. Necə qoydularsa, o, müvazinətini saxlaya bilmədi və

böyrü üstə yerə yıxıldı və beləcə qaldı.

İllər keçdi. Onun üstünə gecələr yağışlar yağdı. Səhərlər Günəş çıxıb qurutdu. Qar ələndi. Bəzən o qədər qar yağdı ki, telefon köşkü günlərlə ətrafa baxa bilmədi. Yalnız bir rəng gördü – ağ rəng…

Bu gün də qar yağırdı. Səhər açılandan başlamışdı. Ulduz-ulduz qar dənələri onun şüşəsinə qonur, işıldayır, sayrışırdı. Telefon köşkü hər yeni qar dənəsinə gülümsəyir və deyrdi: «Gəldin?! Sən nə gözəlsən… Tam fərqlisən..»

Qar dənələri sevinclə uçuşur və bir-birini qova-qova onun üstünə ələnirdi..

– Myao… Myaooo…

Köhnə telefon köşkü həyəcanlandı. Səs yaxından gəlirdi.

– Myaooooooo…

«Pişik səsidir. Bu soyuqda… Şaxtada». Telefon köşkü titrədi. Üstündəki qar dənələri ətrafa səpələndi.

O, diqqətlə baxdı. Ağ qarın üstündə iki parıldayan göz görünürdü. Başqa heç nə.

Amma miyoltu kəsilmirdi.

– Myaooooo…

Köşk bir də baxdı. Bir də… Və gördü. Agappaq, qar rəngində pişik balası idi. Soyuqdan titrəyirdi. Başını ora-bura gəzdirir, girməyə yer axtarırdı…

«Necə balacadır. Bayırda qalsa, səhərə qədər donacaq. Mən ona kömək etməliyəm. Kömək… Mütləq!»

İllərdir asılıb qalmış telefon dəstəyi yelləndi. Köşk cırıldadı.

Pişik səksəndi. Amma qaçmağa gücü çatmadı. Telefon köşkü bir də tərpəndi. Bir də cırıldadı. Və o istədiyini etdi. Qapısı azca aralandı. Pişik başını ona sürtdü. Bir də, bir də… Və aralı qapıdan içəri girdi. Minnətdarlıqla gülümsədi. Ağzını geniş açıb ləzzətlə əsnədi. Çəhrayı burnunu qırışdırdı. İllər öncə köşkdə unudulmuş bir uşaq yun köynəyinin içinə girdi. Ağ yumaq kimi büküldü. Az sonra bala pişiyin mışıltısı köşkü başına götürdü…

Köhnə telefon köşkü elə xoşbəxt idi ki… O, kiminsə köməyinə çata bilmişdi…

Nərmin Kamal. Əyləncə

Elə eləyin ki, sabah dividi tapa bilim. Xahiş eləyirəm, əlinizdən gələni eləyin! Bir də heç nə istəmərəm, söz verirəm, təki indi xilas eləyin məni. Əgər sabah hansısa dükanda o divididən tapa biləcəyəmsə, onda mənə nə isə bir işarə verin…

O gecə üzümü səmaya tutub belə sözlər dedim. İstəyimi deyəndən sonra göz-qulağımı gərib nəhəng kəhkəşanı dinşədim. Gözlədim bəlkə bu aydın gecə səmasında bir ulduz axa, bəlkə xəfif nəfəs kimi təkcə mənim hiss edəcəyim bir səs, bir tərpəniş ola… Heç bir işarə yox idi. Düzdü, ulduzlar say-say sayrışırdı, ancaq ki, o sayılmır. Çünki mənim sözlərimdən əvvəl də sayrışırdılar. Qollarım süstləşdi, qayıdıb girdim evə.

Səhər sübhdən qapını astaca örtüb şəhərə çıxdım. Ardımca anam ağ saçlı başını qapıdan çıxarıb hirslə «Dividi!» qışqırdı.

Günortaya qədər bütün mağazaları ələk-vələk elədim, hər yanı gəzib dolaşdım. Hamısı eyni sözü deyirdi: «Yoxdur». Arada birini tapdım, amma o, qara rəngdəydi.

Şəhərdən ümidimi üzüb şəhərlərarası qatara mindim, bizim şəhərlə qonşu şəhərin arasında təzə salınan Çin bazarına yola düşdüm. Yanımda anam yaşlarında bir qadın gəlib oturdu. Bir anlıq istədim başımı ona söykəyim, o da sakit durmasın, məni bağrına bassın. Amma hakimin sözlərini yada salıb özümü yığışdırdım.

* * *

Söz vaxtına çəkər, onda da günortaydı. Nahar fasiləsinə az qalmış hakim atamla anamın boşanma qərarını oxuyandan sonra gözünü kağızdan qaldırıb ağızucu dedi:

– Azyaşlı olsaydı, qərarda övladınızı da nəzərə alardıq. Amma ehtiyac yoxdur, Svetanın otuz yaşı var, özü öhdəsindən gələr.

Onda da yay idi, tatuları məhkəmə camaatından gizlətmək üçün o istidə uzunqol pencək, boyunlu köynək geyməyə məcbur olmuşdum. Hakim çıxan kimi hamıdan əvvəl özümü atdım məhkəmənin parkına. Saçıma-başıma bir az meh dəydi. Çəmənliyin balaca fəvvarəsi fırlana-fırlana şalvarımın ətəyini isladıb keçdi.

Restorandan qab-qaşıq cingiltisi, gülüş səsləri, içkilərin qoxusu parka yayılırdı. Atamla anam bir-birinin üzünə də baxmırdılar, atamın vəkili olan kişiylə anamın vəkili olan qadınsa birlikdə deyə-gülə məhkəmədən çıxdılar, bircə əl-ələ tutmaqları qalmışdı, qabağımdan keçib restorana girdilər. Sonra anam çıxdı məhkəmədən, gəlib yanımda oturdu, çantasını yerə qoydu:

– Sveta, heç kədərlənib eləmə. Ananın ömrü uzanacaq bundan sonra. Çox şey var, sən bilmirsən. Gərək məni başa düşəsən. Bu gen dünyanı başıma sənə görə dar elədim ki, elə biləsən xoşbəxt ailədə böyüyürsən. Bir-iki ay bundan əvvəl öz-özümə dedim, daha nə gözləyirəm?! İndi daha Sveta da böyüyüb, –

hakim içəridə çox danışmağa icazə verməmişdi, o da parkda ürəyini boşaldırdı, – öz həyatın, öz işin-gücün var. Qoşanağaradı, çalırsan. Başqa min dənə iş-peşə seçə bilərdin, özün musiqini istədin, musiqini seçdin. İstəyəndə çaldın, istəməyəndə aylarnan çalmadın, aylarnan məşqlərə getmədin. Yəni özün bilirsən istək nədir. Mən də istəmirəm. Daha dözə bilmirəm. Sən sevinməlisən ki, biz ayrıldıq. Başqa cür də ola bilərdi, atan ananı öldürə də bilərdi… Sveta, niyə danışmırsan?

İçindən sənədlərin ucları görünən çantasını yerdən qaldırdı, «Eybi yox, səni tək qoyum, rahatlan, sonra danışarıq» – deyib getdi. Kiçik fəvvarə yenə şalvarımın ətəyini yalayıb keçdi.

«Səbiş, yaxşısan? Nəsə pis görünürsən, üzün tutulub» – xalaqızım gəldi.

Onu başımdan edəndən bir az sonra atam çıxdı məhkəmədən, gəlib yanımda oturdu. Sifəti elə idi, elə bil bir maşın daş daşımışdı:

«Anan həyatımı məhv elədi. Həyatımın harasına baxsam, görürəm anan mənim qabağıma çıxmasaydı, filan şey başqa cür olardı, bəhmən şey ayrı cür olardı. Çətindi. Neçə gündü baxıram dama, divara, özümü asmaq istəyirəm. Bircə sənə görə yaşayıram».

Hərəsi bir çiynimdə ağladı.

Üstündən altı ay sonra özüm də Əzizdən ayrıldım. Bilmirəm necə oldu. Adamlar var, başlarına nə gəlsə, başa düşürlər niyə oldu, nədən oldu. Bəxtəvərdilər. Mən heç nəyi başa düşmədim. Üç ildi mehriban yaşayırdıq. Yəqin indi yenə oturub pəncərənin

qabağında, yanbızları taburetdən pırtlayıb çıxıb. Əyilib kasaya od hazırlayır.

Müştəri olmayanda ya öz bədəninə döyürdü, ya mənim bədənimə. Qollarıma əqrəb döydü. Boynuma ilan. Sinəmdə «Fuck» yazmağını istəmirdim. Qayıtdı ki, bəs bu bədən mənimdi deyirdin?! Nəsə, xətrinə dəymədim. Fürsət düşən kimi pozduracam. Hərdənbir müştəri düşəndə necə sevinirdi!

– İşlər yaxşı gedir, sənətkar? – müştəri deyirdi.

– Zülümdü. Müsəlman ölkəsində bu iş getmir, qardaş. Yoxdu gələn – deyirdi, – Bəzən biri gəlir, deyir, elə tatu çək ki, sonra silinsin. Deyirəm ona, qurban olum sənə, müvəqqəti tatu olmur. Elə-belə tatu olmur. Qərarını ver! Qərar verə bilmir.

Elə ki müştəriylə söhbətə başladı, iş çəkirdi gecəyarıya. Onda mən aradan çıxırdım.

– Evdə tapılmırsan, – gecə mən qayıdanda deyirdi.

– Sən bilirsən hara gedirəm. Yenə atamı teatra aparmışdım.

– Atamı teatra aparmışdım. Öz həyatını, işini-gücünü atıb atasını teatra aparır. Biz görmüşük ata balaca uşaqlarını yığıb teatra aparar. Sizdə tərsinədi. Sizdə hər şey tərsinədi. Adamın ata-anası boşanar. Amma uşaq vaxtı. Daha bu yaşda yox, – əvvəl elə bilirdin boğazdanyuxarı deyinir, sonra səsini get-gedə qaldırırdı, – Sənin indi mənimlə teatra gedən vaxtındı. Qıznan yaşayıram, ya yox? Əgər hə, onda niyə hər axşam burda tək otururam, hər gecə tək yatıram. Gözdə, teatr qurtarar, Sveta xanım atasını, anasını ayrı-ayrılıqda əyləndirər, ondan sonra evə gələr.

– Kefimdən aparmıram onu teatra. Fikrini saxlayıram. Ata mənimdi, tanıyıram onu. Həyatdan bezib. Özü diliylə dedi, özünü öldürmək istəyir. Başını qatıram.

– Bəs mənə əyləncə lazım deyil? Nə vaxt yaxınlaşsam, deyirsən, indi yox. Vırhavır inşaat da bu yandan baş-beynimi aparıb.

Onu düz deyirdi. Həyətdə gecə-gündüz iki betonqarışdıran maşın yanaşı durub həşirlə fırlanırdı. Pəncərədən hər baxanda krançı orda olurdu. Üç-beş aya təzə evlərdə həyat kölgələr kimi pərdələr arxasında gizlənəcəkdi, hələ ki, içləri tamam görünürdü. Hər mərtəbənin döşəmə-tavanı hazır olduqca kabinə yuxarı qalxırdı. Qalxa-qalxa Əzizin pəncərəsi bərabərinə – on yeddinci mərtəbəyə çatmışdı.

Krançı yeməyini kabinəsində yeyir, yemək artıqlarını ordan büküb aşağı tullayırdı. Nahardan sonra oturduğu yerdə ayaqlarını aralayıb başını qollarının üstündə kabinənin pəncərəsinə qoyurdu, günortasını yatırdı. Axşam iş qurtaranda kranın pillələriylə asta-asta aşağı düşürdü. Düşüb yerə baxırdı, əgər hələ külək aparmayıbsa, gün boyu tulladıqlarını tapıb zibilqabına aparırdı. Əziz demişdi bir pişik də kranın pilləkənləriylə yuxarı qalxırmış, ancaq mən görməmişdim. Yemək verib dadandırıbmış ora.

Mənə də kabinənin içi maraqlıydı. Kaş dırmaşaydım ora. Çıxsaydım, gərək elə günün ortası çıxaydım, fasilə vaxtı. Orda krançıyla yan-yana oturardım, vaxtın daha asan keçməsiyçün bir-birimizə kömək edərdik. Fikirləşirdim, amma gedib

dırmaşmırdım. Yəqin onun öz kabinəsində tək qalmaqdan xoşu gəlir. Ora çıxdığımı görsə, acıqlanardı bəlkə. Lap acıqlanmasa da, nə mənası? Nə barədə danışacaqdım onunla? Krançı nə danışsa, mən atamdan, anamdan danışacaqdım. Krançı da Əziz kimi deyəcəkdi: «Otuz-qırx yaşında uşağı olan da boşanar? Bu nə işdi gəlib başına?!» Axırda krançı başqa adamlar kimi deyəcəkdi: «Fikir eləmə, balaca uşaq deyilsən ki, hər şeyi başa düşən yaşındı».

Əzizlə axırıncı dəfə günorta dalaşıb evdən çıxanda həyətdə düz biraddımlığımda yerə pivə bankası düşüb danqıltıyla sıçradı. Bircə addımın söhbəti vardı ki, başım partlamadı. Bu, krançıyla son ünsiyyətimiz oldu.

Həmin gün anamgilə köçdüm. Anamgildə hər səhər gözümü açan kimi öz-özümə deyirəm: «Görəsən, bu gün ilk nə eşidəcəyəm, günüm də elə keçəcək…».

«Boğub qızı, zorlayıb, öldürüb, alçaq…» – ilk eşitdiyim bunlar olur. Anam bütün axşamı televizorda cinayət verilişlərinə baxır, səhər sübhdən telefonda bunları bekar qohumlarına danışır. Bəzən səhəri gözləməyib axşam da danışır. Mən də uzunqol pal-paltarda gəzirəm evin içində. Gərək vaxt tapıb tatuları sildirəm.

* * *

Çin şəhərciyinə çatanda gün günortaya gedirdi. Günəş şəhərlərarası qatarları, qızıl qum təpəciklərini, içərisi min

cür xırdavatla dolu çadırları, burada qarışqa sürüsü kimi qaynaşan adamları qovururdu. Öz əlimlə bura qoyubmuşam kimi, gümüşü nazik uzunsov dividi qutumu axtarmağa başladım. Dal-dalı düzülüb səbrlə addımlayan izdihamın dəvə ayaqları kimi zərbələrini eşidirdim.

Barmaqlarım eşitdiyim zərbələri təkrarlamaq üçün qıc olurdu. Sərt çantamı götürsəydim, çantanın müstəvisində onları azad buraxardım, asta-asta tıqqıldadardılar. Barmaqlarımın məndən ayrı olduğunu heç kəsə başa sala bilmədim. Onlar şən çalsa da, mənə nə. Onların nə çalmağının mənə dəxli yoxdu. O vaxt məktəbdə oturduğumuz yerdə birdən ədəbiyyat müəlliməsi qaşını çatıb demişdi: «Bu nə səsdi!» Məni küncə də qoymuşdular buna görə, direktorun otağına danlamağa da aparmışdılar.

Birinə demişdim o vaxt, özümdən asılı deyil. Direktorun katibəsi idi. Demişdi, nə nəğməli ürəyin var. Cavab qaytarmışdım ona. Nəğmə, yox bir! Karate kimi bir şeydi, amma əşyaları döyürəm. Əslində günə altı saat əyləşib əməlli-başlı qoşa çalsam, yaxşı olar, barmaqlar yorular, daha dama-divara vurmazlar özlərini. Amma oturub ciddi çalmağa vaxt yoxdu. İstək də yoxdu. Barmaqlarımı belə, ayaq üstə lələ-güləylə dolandırıram. O gün teatrda qabağımdakı oturacaqda çalırdım. Adam hiss elədi, bir döndü, iki döndü. Heç nə deyə bilmədi.

Atam daha teatr da xoşlamır.

«Aktyorlar səhnədə kablukla yeriyirlər, səhnədə ayaqqabıları gumbuldayır, əsəbləşirəm» – teatrdan çıxanda deyir.

Mən heç eşitmirəm kabluk-mabluk səsi. O deməsə, heç

bilmərəm. Bir dəfə istədim deyim «sən onun sözlərinə qulaq as, dabanlarının səsiylə nə işin?!» Amma demədim. Bilmirəm. Ona qarşı getməkdən qorxuram. Birdən gedib özünü asar.

Onsuz da hər gün anamla bir-birini görməyə-görməyə dalaşırlar.

«Musiqi sənə məndən keçib» – atam o axşam mağazaların jalüzləri şaqqaşaraqla çəkilən vaxtı biz teatrdan evə qayıdanda dedi.

Mən də bunu anama dedim, elə bildim körpü atacam aralarına, elə bildim yaxşı söz dedim.

Cavabında anam məni balaca kos kimi götürüb atamın qapısına çırpdı:

«Get ona de ki, bircə dəfə səni musiqi dərsinə aparıb? Ya bəlkə evdə qoşa nağaranı qabağına qoyub sənə bir zərb öyrədib? Ondan sənə musiqi necə keçə bilər?!»

İstədim deyim qanla keçib, amma dərinə getmədim. Söz güləşdirmək nəyə lazımdı, axı həyatda əsas məsələ o deyil. Əsas məsələ odu ki, anam telefonla danışıb yenə də birtəhər öz başını saxlayırdı, atamınsa insan ünsiyyəti ilə arası yox idi. Bütün günü uzanıb dama baxırdı. Axırıncı dəfə güclə gedib evindən çıxarmışdım. Heç yana getmək istəmirdi. Onu istəmədiyi bu həyatda necə saxlayacaqdım?! Teatra getməyi xoşlamırsa, başqa əyləncə tapmalıydım. Hətta mümkün olsa əyləncəni onun otağına gətirməliydim.

Anamın otaqlarında elə bu fikirlə var-gəl edirdim ki, gözüm nazik uzunsov gümüşü bir qutuya sataşdı. Üstündə yazılmışdı:

«Shivaki» DVD player. Hər gün telefonda danışdığı qardaşı qızı bu yaxınlarda Amerikaya gedib gəlmişdi. Bu dividini də ordan gələndə hədiyyə gətirmişdi. Anam ancaq həftədə bir dəfə tozunu silirdi onun. Heç içinə disk salıb bircə filmə baxmamışdı. Baxmaq da istəmirdi. Bu əşyanın ondan ötrü içində sıxılmış qaranlıq gizlədən mücrüdən fərqi yox idi.

Bir axşam yeməkdən sonra, cinayət verilişi başlamazdan əvvəl anama dedim:

– Olar dividini bir həftəlik ataya verim? Bir-iki tamaşa almışam onun üçün, baxsın, qaytarsın.

– Olar, niyə olmur?! Bir həftəyə qaytaracaqsa, olar – anam dedi.

«Bir həftəyə o dividi sənin yadından çıxacaq» – öz-özümə dedim. Səhəri gün dividini qoltuğuma vurdum, satıcının seçdiyi bir neçə gülməli tamaşa diski də aldım, atamın qapısını döydüm.

– Sənincün hədiyyə gətirmişəm. Bundan sonra nə qədər istəsən, evdə otur tamaşalara bax. Ana deyir, onsuz da baxmıram, lazım deyil bu dividi mənə, apar ver atanda qalsın – mən belə dedim.

Bir müddət başı qarışdı. Tamaşalar evə gəldi! İnsan cocuq, həyat ona əyləncə.

Bir həftənin tamamında anam dedi:

– Bəs hanı dividi?

Həyəcanımı necə lazımdırsa gizlətdim, dedim, sabah qaytaracaq.

– Nə oldu dividi? – anam səhəri gün də dedi.

Onda daha məcbur oldum, gedib atama dedim ki, dividini bir-iki günlük anaya aparmaq istəyirəm, bir film var, baxıb sonra qaytaracaq sənə. Onsuz da daha atama da gərək deyildi dividi. Onu götürüb çarpayısının altına qoymuşdu. Bu əyləncəli dünyanın üzərində uzanıb yenə gözlərini bəyaz damdakı sonsuzluğa zilləyirdi.

– Başa düşmədim, mənə verməmişdiz bunu? – atam dedi.

– Hə, əlbəttə, sənə verib. İndi sadəcə bir filmə baxıb qaytaracaq. Yenə sənə qaytaracaq. Bəs o filmə harda baxsın?

– Mənə vermisizsə, mən qaytarmıram. Gedib harda istəyirsə, baxsın. Vecimə deyil. Get ona belə çatdır! – atam dedi.

Mən niyə anamın sözlərini olduğu kimi, heç bir əlavəsiz və heç bir dəyişikliksiz atama, atamın sözlərini olduğu kimi anama çatdıra bilmirdim?!

– Huşsuz başım! Dedi, gedəndə apararsan, yadından çıxmasın. Söhbətə baş qarışdı, ikimizin də yadından çıxdı. Sabah mütləq, necə olsa, gedib gətirəcəm…. Amma neynirsən ki, bu dəqiqə nəyəsə baxırsan? – mən dedim.

Ən pis halda necə olmalıydısa, elə oldu:

– Baxıram, baxmıram, öz işimdi. Sabah dividi burda, bu masanın üstündə olsun. Yoxsa atanı polisə verəcəyəm.

* * *

Çin bazarından qayıdanda axşam idi. Anam telefonla danışırdı. «…poçtalyon adıyla girib, qocanın əl-ayağını bağlayıb,

bütün pulları yığışdırıb, aparıb…»

Əlimdəki dividini ehtiyatla televizorun altındakı şkafa yerləşdirdim. Görəsən, anam bu yeni qutunun onun öz qutusundan bir balaca qısa olduğundan duyuq düşəcək?! Sonra özümü taleyin ixtiyarına verdim. Anam dividiyə ötəri baxıb başıyla mənə «hə» dedi, qulağındakı telefonla danışa-danışa yanaşı otağa keçdi: «Əvvəllər 20 qocanı öldürübmüş. Amma bunu öldürməyib. Yəqin ona görə ki…» Anam, deyəsən, bilmədi. Qutunun üzərində «Shivaki» əvəzinə «Shavaki» yazıldığına da fikir vermədi.

İndi bizim ailədə iki dividi vardı. Biri atamda, o birisi anamda. Biri əsil idi, o biri surət. Bu gümüşü qutular heç birinə gərək olmasa da, uzun illər onlarla bir damın altında yaşayacaqlardı.

Axşam çiynimə jaket salıb küçəyə çıxdım. Gecəyarı dizlərim ağrıyana qədər gəzdim. Əzizin pəncərəsində işıq yanırdı. Bir qaranlıq səkidə kolların dibində oturdum. Yoldan keçən kişi məni görüb ona qısılan balaca oğluna dedi: «Qorxma, it dəyil».

Gecənin qatranı qaraldıqca göydən yerə tərtəmiz hava töküldü. Buludlar ulduzları gizlətmişdi. Görünməsəniz də, sağ olun. Uzaq olsanız da, yer üzündəki adamlardan yaxınsınız. Bircə bilim ki, ordasınız, bilim ki, başımın üstündəsiniz, orda fır-fır fırlanırsınız. Ana şübhələnməsə, sabah həyatımın sakit bir günü olacaq. Nə işim olacaq ki, sabah?! Bu bir fürsət, gedib tatuları sildirərəm.

İlqar Rəsul
Dovşan

Dünən barmağımı əzmişəm. Bu gün yaman ağrıyır. Gecə yaxşı yata bilmədim. İndi yuxum gəlir…

Əslində, mən qoçaq adam deyiləm, qorxağam yəni. Lap Dovşan kimi qorxaq.

Hər şeyə diksinən, hər şeydən hürkən bir Dovşan yəni. Əvvəl belə deyildim. Yox, əvvəl belə deyildim. Ətrafdan ehtiyatlanmaq nə deməkdir? Gözümü qırpmadan gedərdim hər şeyin üstünə. Lap elə rəqiblərimin də, lap elə düşmənlərimin də, lap elə ölümün də…

Sonradan…

Sonradan belə oldum. Qəfildən yəni. O qəzadan sonra. Sonrası olmayan qəzanı deyirəm. İndi qorxağam. Lap Dovşan kimi qorxaq. Amma bunu özümdən başqa, heç kim bilmir. Yəni nə binamızda, nə də həyətimizdə. Heç kim bilmir. Heç kim. Bilmir…

Yaman pis vaxtdır. Çətin yəni. Sonra yaxşı olacaq deyirlər. Asan yəni.

Hava da həyat kimidir. Dəyişkən yəni.

Buludla, günəşlə adam aldadır, sümüklərin sınıq yerlərini ağrıdır. Sızıldadıb incidir yəni. İllah da çiynimi və onurğamı…

İndi payızdır. Sərinlər fəsli. Sonra qış olacaq. Şaxtalar yəni.

Payızın rəngi sarıdır. Qışınkı ağ. Yayınkı yaşıl. Yazınkı əlvan. Rənglər də adamlar kimidir. Şəni, bədbini, ölüsü, dirisi, gerçəyi, oxşarı var… Təkcə anaları tamam başqa rəngdədirlər bu dünyada – qayğılı rəngdə.

Anaları həmişə qayğılı rəngdə olurlar. Hə, qayğılı. Şən, bədbin, ölü olanda da…

Bizi valideynimiz şən tərbiyə edir, əslində. Həyat döyüb bədbinləşdirir çoxumuzu.

Əsmər soruşur:

«Adamlar niyə ağlayırlar?»

«Deyirəm, çünki hər gün gülmək heç kimin alnına yazılmayıb.»

Bilirsən, hamının dərdi var. Baxırsan, hamı kefdədir. Məncə, dünyadakı bütün keflər ya dərddən əvvəl, ya da sonradır. Dərd daha əbədidir sanki, Kef qədər tez tükənən deyil yəni. Dərd adamı nə qədər yandırsa da, özü buz kimidir, əslində. Mən qışda çox üşümürəm. Yazda tez-tez soyuq olur səhhətimə. Soyuqdan istiyə girəndə nəfəsim eynəyimi dumanlandırır. Şüşənin arxasında gözlərimi yumub yenidən görməyimi gözləyirəm. Bu vaxt üzbəüz dayanıb söhbət edən onu görmədiyimi görmür. Eynəyimin şüşəsi bir az rənglidir həm də…

Mən adamlara çox da fikir vermirəm. Əsmər deyir, onlar milçək kimi ürək bulandırırlar. Amma mənim heç ürəyim bulanmır. Bəlkə də, evin bütün pəncərələri torludur, ondan. Bayıra da ancaq Əsmərlə çıxıram. Rastlaşdığım insanların da

çoxu məni tanıyanlardır, Mən onların çox azını tanısam da…

Məktəbdə müəllimlər demişdi, oxuyun. Amma deyəsən, biz oxumasaq da, olardı. Həyat hədiyyələri oxumayanlar üçün düzəldirmiş bizim tərəflərdə.

Altından çay axmayan körpülərə yazığım gəlir. Onlar da gözünün yaşı qurumuş adamlar kimidir. Bir də, belə körpülər heç vaxt suda çimən uşaqların şənliyinə sevinə bilmirlər. Ətrafını varlıların hasarladığı göllər də belədir. Camaatı təzə binaya köçmüş köhnə məktəblər də uşaq sevincindən məhrum olurlar…

Sevinmək, gülmək hamının haqqıdır, bilirəm. Kədərlənmək, ağlamaqsa paydır. Alnımıza haqqımızdan çox, paymız yazılır niyəsə. Bilmirəm, insanlar daha çox sədəqəyə niyə meyllidirlər? Bəlkə də, insan üçün əl açmaq tər tökməkdən daha asandır, ona görə. Amma məncə, ən yaxşı sədəqə də, bəxşiş də insan təbəssümüdür. Halın ola, fərqinə vara biləsən…

Hərdən adam içindəki boşluğa yıxılır. Nə qədər çalışır, çıxa bilmir. Belə hallarda Əsmər zarafata salıb xilas edir. Nə gəldi deyir məni güldürmək üçün. Heç nə alınmayanda da deyir ki, «buna bax, dünyanı düzəldəcəkmiş».

Onda ikimiz də gülürük…

Deyirəm:

«Yaxşı ki, ölüm qaşla göz arasındadır.»

Allahsa hər yerdə. Məncə, Allahı insana sevdirən əsas cəhəti «bağışlayan» olmasıdır. Yəqin, elə özünü sevdirmək üçün də O, insanı günahkar yaradıb…

Mən əvvəllər də Allaha inanırdım, amma indi daha çox

inanıram. Lap Əsmərə inandığım qədər. O da Əsmər kimi təkdir axı. Bir dənə yəni…

Bizə ilanın ağına və qarasına lənət deməyi öyrətmişdilər. İlanlarsa hər rəngdə çıxdılar qarşımıza. Addımbaşı Şeytana lənət oxuyanların da halı acınacaqlıdır. Şeytanlar idarə edir onları çox vaxt. Dalğanın böyüyü fırtınadır, küləyinki tufan, qasırğa. Heyvanın böyüyü kökü, ətlisidir, ağacın böyüyü iri gövdəlisi, kölgəlisi. Amma çox vaxt insanın böyüyü hökmlüsü sayılır nədənsə. Hökmlülərin də çoxu allahsız olurlar. Düzdür, ibadət edənləri az deyil. Amma məncə, insanın imanı ibadəti ilə bəlli olmaz. İnsanın ibadəti İnsana, bütün canlılara və təbiətə münasibəti ilə bəlli olar. Bir də arzuları ilə… Əslində, arzuların ən gözəli ürəkdə qalanı olur. Ürəklərin ən etibarlısı tez partlayanıdır, məncə.

Yaz yağışları torpaqda ətirlənirlər adətən. Payız külәkləri ağaclardan yarpaq dərirlər. Qış şaxtalı olur ki, insanlar təbiətin yaxasından əl çəksinlər bir müddət. Əsmər ilin çimərlik fəslini sevmir. Deyir, yay dənizin ov mövsümüdür sanki. Mən üzə bilirəm deyə dənizdən qorxmuram. Dovşan kimi qorxaq olsam da yəni. Dənizin də buna görə məndən zəhləsi gedirsə, olsun. Bu, məni heç üzməz. Mən ulduzlu səmanı daha çox sevirəm. O da pəncərəmin nəfəsliyindən görünən hissəsini. Sanki çərçivəyə salınmış rəsmdir…

Bir dəfə ruhdan düşürdüm. Gözümə gün düşdü, özümə gəldim. Çoxdandır, gözümə ta gün də düşmür.

Kimsəsiz yolu keçəndə lap çox qorxuram. İndicə haradansa

qəfil bir yük maşını peyda olub üstümə aşacaq deyə.

Əsmər deyir ki, evdən çıxdınsa, bir gözün özündə olsun gərək. Amma mənim iki gözüm də ayağımın altında qalır, çoxdandır. Hava qaralanda gözlərim yaxşı görmür. Gecələr adamların kölgələşib bir-birindən seçilməməsi maraqlıdır. Tanıdın, tanımadın, hamıya «axşamınız xeyir» deyib keçirsən. Şər vaxtı hamıya xeyir diləmək elə gözəldir.

Amma bu, çoxdan olub. Çoxdandır, hava qaralmamışdan evə qayıdıram. O da hərdənbir evdən çıxanda. O da Əsmər yoldaşlıq etmək istəyəndə… Çarpayımın baş tərəfində Əsmərçün kətil qoymuşam. Gecələr yatmazdan əvvəl yerimdə uzanıb onunla söhbət etməyi xoşlayıram, Bir də pəncərədən görünən ulduzları Əsmərə göstərməyi.

Yeməyi tək yeyirəm adətən. O da lap çox taqətdən düşəndə. O da dadsız-duzsuz. Amma çayı birlikdə içirik çox vaxt. Əslində, mən çayı isti xoşlayıram. Əsmər çayını soyudur deyə mən də soyuq içirəm.

Bir yer var, ora tez-tez görüşə getməkdən çəkinirəm. Orada hamını daşdan düzəldib ustalar. Ən yaxşı görüş yeri insanın qəlbidir, məncə. Orada əzizlərin heç biri daşdan deyil. Necə vardırlar, elədirlər yəni.

Bir yerim ağrıyanda Əsmər yaman çox danışır. Acımı unutdurmaq istəyir, bilirəm. Mənimsə həmişə haramsa ağrıyır. Daşlarla söhbət edib qayıdanda bərk ağrıyıram. Amma haram ağrıdığını anlaya bilmirəm. Ən pisi ruhun ağrımasıdır, məncə…

Ağıllıdır Əsmər. Həm də çevik, ürəkli. Həm də canıyanan.

Mənim qorxaq olduğumu da yaxşı bilir. Həm də Dovşan kimi qorxaq olduğumu. Əşşi, bilsin də. Olum də qorxaq. Lap elə Dovşan kimi. Əsmər ki qorxaq deyil, onun cəsarəti ikimizə bəs edir…

O gün yenə qonşuya çoxlu paltar verdim. Yenə də əynimə böyümüşdülər. Bircə sonuncu dəfə aldığım qara kostyumu saxladım. O da böyüyüb, əslində. Amma qonşu götürmədi. Dedi, qalsın özünüzdə, Sizə çox yaraşır. Əvvəl də demişdi bu sözü.

Televizorda çıxışıma baxmışdı, eyvandan səsləyib xeyli tərifləmişdi:

«Sakit danışığınız, qətiyyətiniz, bir də güclə sezilən təbəssümünüz əladır».

«Bütün qonşular Sizinlə fəxr edir» də demişdi.

Bir də demişdi ki, «kostyumunuz əla yaraşır».

Yəqin, indi bilmir ki, ta yaraşmır. Haradan bilsin. Heç Əsmər də bilmir, bəlkə. Demədim Əsmərə o gün kostyumları geyinib baxanda. Amma hiss elədim ki, qonşu geri qaytaranda sevindim. Deyəsən, dərziyə verib kiçiltmək istəyirəm onu.

Bilmirəm.

Amma yox. Bəlkə də, xatirələri nisbətən təzədir hələ. Sonuncu ailəvi yığıncağımızda o kostyumu geyinmişdim.

Həmin gün həyatda ən böyük uğurun astanasında olduğumun dadını çıxarırdıq. Böyük oğlum fəxr edirdi mənimlə. Balaca nə baş verdiyini anlamırdı, amma o da sevinirdi. Xanımımsa həmişəki kimi idi. Tərəddüdlü yəni. Amma xoşbəxt idi, əlbəttə. Hər halda bir az elə görünürdü. Hərdən dünyanın ən xoşbəxt

adamıyıq sanki. Ailəvi – hamılıqla sevinəndə yəni. Amma bu, çoxdan olub…

Hə, o kostyum idi əynimdə. Bir gün əvvəl xanımımın bağışladığı ağ köynəklə. Amma sonrakı gün, yolda qəzaya düşdüyümüzdə əynimdə deyildi yaxşı ki. Yaxşı ki. Yaxşı kiiiii…

Gör nəyə sevinirəm də. Həm də o boyda qəzadan danışanda. Nə isə, rədd olsun pis xatirələr. Əsmər deyir, çalış, o hadisəni xatırlama. Mən də çalışıram, xatırlamayım. Məncə, Əsmər düz deyir.

Amma hərdən Əsmərdən xəlvət ailəvi şəklimizə baxmağım da var. O gecəki şəklə. Qəzadan bir gün əvvəl restoranda çəkilən şəklə yəni. Hamımız hələ də gülürük o şəkildə. Mən, xanımım və oğlanlarım yəni. Deyirlər, şəkillər çox qalanda saralır. Saralmasın deyə soyuducuda saxayıram o şəkli…

Hə, kostyumdan danışırdım axı. Sonuncu dəfə teatra da o kostyumda getmişəm. Qara şlyapa, qəhvəyi qalstuk, ağ köynəklə əla tuturdu. Amma özüm əvvəlki kimi gümrah, inamlı deyildim. Bir az qorxaq idim. Dovşan kimi yəni. Amma çox şux idim onda. Əsmər də yanımda… Amma bir az da hüznlü, yaslı kimi. Qəzanın bir ili təzəcə çıxmışdı onda.

Əsmər əl çəkmədi ki, gedək teatra. Gedirdik, guya özümüzə gələk. Yenidən başlayaq, bəlkə. Amma olmadı. Oradan xəstəxanaya gedəsi olduq. Əslində, bilməmişdim nə baş verdiyini. Palatada özümə gələndə dedilər. Dedilər, qorxmayın, təhlükə sovuşub artıq. Haradan bilsinlər ki, dovşanlar üçün təhlükə heç vaxt sovuşmur.

Qorxmuşdum, əlbəttə. Lap Dovşan kimi. Elə bilmişdim, Əsmərə də nəsə olub. Amma ayılandan bir az sonra Əsmər gəlib çıxdı. Həm də çoxlu təsəlli ilə. Həkimlər bilmədilər ki, məni yataqdan onlar yox, Əsmər qaldırdı, əslində…

Sağ qolumun quruması çox da üzmür məni, onsuz da mən solaxayam. O qədər solaxay ki, bəzən kimsə «sağ ol» deyəndə çaşmağım da var. Yəni sağ əlimə çox da ehtiyacım olmurdu onsuz da. Zatən bütün rəsmləri də sol əlimlə çəkmişəm. Elə qəzadan qırx gün sonra, gecəyarı hamısını həyətdəki zibil çəlləyində yandıranda da kibriti sol əlimlə alışdırdım.

Elə sonradan indi evdə olan yeganə rəsmi – Əsmərin portretini də sol əlimlə çəkdim. Olmasın bir qol yəni, dünya dağılmaz.

Saçımın tez ağarması, əksinə, xoşuma gəlir hərdən. Həyət-bacada müdrik göstərir məni. Hiss etmişəm adamların baxışından.

Əvvəl də qonşular xətrimi istəyirdilər, rastlaşanda çöhrələri təbəssüm rəngi alırdı.

Amma indi bir az da çox istəyirlər, məncə. Anaların rəngində olur məhəlləmizin kişilərinin də sifəti hər məni görəndə.

Dovşan kimi qorxaq olduğumu heç kim bilmir axı.

Amma sifətimin əyilməsini istəməzdim, düzü. Hələ də güzgüyə baxanda bir az ürpənirəm…

Nə isə. Hələ ki qalıb də şifonerdə. Kostyumu deyirəm. Düzünü Əsmər bilər. Kimə istəsə, nə zaman desə, onda da verərik, gedər.

O gün həyətdə toy vardı. Bizim musiqini də çaldılar. Əsmərlə

pərdələri çəkib evdə əməllicə rəqs elədik. Azca qırmızı şərab da içdim. Çox yox. Bir-iki qurtum. Əsmər deyir, çox olmaz.

Xeyir, şər – həyətimizdə nə olsa, eyvana çıxıb, içimdən gələnləri söyləyirəm səbəbkarlara. Adi diləklərdir yəni, hamının söylədiyi. Əvvəllər olduğu kimi, camaatın sevincindən, kədərindən kənarda qalmamaq üçün belə edirəm. Yadırğamayım yəni. Doğrusu, bir az da rahat olmaq üçün.

Ürəyimdə deyirəm, nə desəm. Bərkdən söyləsəm də, eşidən olmaz amma. Səsim çox zəifdir, elə həyət də çox aşağıdadır. Adi sözlər deyirəm. Hamının dediklərindən yəni.

Biri evlənəndə hamımız deyirik: «Allah xoşbəxt eləsin».

Birinin uşağı doğulanda hamımız deyirik: «Allah saxlasın».

Biri öləndə hamımız deyirik: «Allah rəhmət eləsin».

Amma məncə, insan özü də hərdən nələrsə eləməlidir. Hər şeyi Allaha yükləmək də bir şey deyil…

Maşınların həyətdəki siqnal səsindən heç xoşum gəlmir. Mətbəxdə krandan su damcılayanda da narahat oluram. Külək qonşunun televizorunun kabelini eyvanımızın məhəccərinə çırpanda da. Sakit havalı axşamlarda eyvana çıxıb həyətdəki maşınları saymaqdansa xoşum gəlir, Bir az rahat edir məni.

Həm də çoxlu əsnəmək. Nəfəsim genəlir onda.

Əsmər deyir, «eyvana çıxanda çiyninə adyal sal, soyuq almasın səni». Hərdən Əsmərin saqqızını oğurlayıram, eyvanda siqar çəkməyə icazə verir. Amma cəmi iki-üç qullab vururam. Əsmər deyir, «çox olmaz».

Amma bu da köhnə söhbətdir. İndi heç bilmirəm, siqar

haradadır, Şərab haradadır. Bircə ailəvi şəklimizin yerini bilirəm. Soyuducudadır. Həm də nə vaxtsa özüm yazdığım kitabın arasında…

Səhərlər kitab-dəftəri çantaya yığmağı ta unuduram. Elə masanın üzərindəki lampanı söndürməyi də. Südsatan da qapını döymür son vaxtlar. Bəlkə, hiss edib ta süd də içə bilmədiyimi. Bəlkə də, Əsmər nəsə deyib…

Sağ olsun Əsmər, məni heç tək qoymadı. Gecələr söhbətləşdik, pəncərədən ulduzlara baxıb susduq. Gündüzlər dükana, aptekə, qəbir üstünə getdik. Tez-tez evdə çay içdik Hərdən kafedə çay içdik. Gələnə, gedənə baxdıq. Yaxınlaşıb bizə ehtiramını bildirənlərə təbəssüm bağışladıq. Hörmətini sonadək ifadə edə bilməyib qəhərlənənlərə təbəssüm qarışıq təsəlli verdiyimiz də oldu.

Deyirəm də, halın ola, fərqinə vara biləsən, insan üçün təbəssümdən gözəl bəxşiş yoxdur. Amma məncə, sifətim əyildiyi üçün təbəssümüm yaxşı hiss olunmur. Gözümdə də eynək var axı. Həm də şüşəsi bir az rəngli…

Hə, Əsməri deyirdim, bayramlarda evdə süfrə açıb, şam yandırdıq. Sarılıb rəqs elədik bizim mahnımıza. Ən çox da birlikdə küçəni keçdik. Axı mən küçəni tək keçəndə qorxmuşam həmişə. Lap Dovşan kimi. Haradansa maşın çıxıb üstümə aşacaq deyə. Yenə səhərə qədər heç kim gəlib məni maşının altından çıxarmayacaq deyə. O qədər Allaha yalvarmağa ta halım da yoxdur, düzü. Hələ səhər Allahın bütün gecəni səni eşitmədiyindən xəbər tutmaq… Çox qorxuram kimsəsiz küçəni

keçməkdən. Həm də Dovşan kimi…

Özümə Dovşan deyəndə gülməyim gəlir. Axı mən həmişə belə olmamışam. Məmləkət uğrunda mübarizənin nə meydanlarındakı hədə-qorxu, nə evimə gələn anonim zənglər, nə də məhbəslərindəki işgəncələr sındıra bilib məni. Amma o qəza… Amma o…

Əslində, o, qəza deyildi, hadisə idi. Amma kağızlara qəza yazdılar. Nə isə, rədd olsun pis xatirələr…

Hə, Əsməri deyirdim axı, heç tək qoymadı. Bircə çimməndə yanımda olmasını istəmədim Əsmərin. Yaxşı yuyuna bilməsəm də, heç vaxt qoymadım, kömək eləsin. Demədim ona. Utandım həmişə.

İki həftədir, ta çimmirəm. Amma tez-tez paltarımı dəyişirəm. İstəyirəm, Əsmər elə bilsin, o, evdə olmayanda çimmişəm. Son vaxtlar ta əl-üzümü də yumaq istəmirəm. Amma bunlar məni heç narahat etmir. Laqeydləşmişəm hər şeyə sanki.

Elə hey düşünürəm, düşünürəm. «Bir insan niyə bu qədər yorulmalıdır ki axı?» – düşünürəm. Bəzən nəfəs almaq belə o qədər yorucudur ki… Özüm ta heç nə edə bilmirəm. Heç Əsmərlə danışmağa da halım yoxdur…

«Əsmər» – mənim ən çox sevdiyim qız adıdır. Qızım olmadığı üçün onu özümdən uydurmuşam. Bütün yolu arxamızca gələn yük maşını Gecənin kimsəsizliyində bizi vurub dərəyə aşırandan bir ay sonra. Tək, kimsəsiz qaldığıma tam əmin olandan sonra yəni. Qorxudan uydurmuşam Əsməri. Guya tək deyiləm kimi. Guya həmişə yanımdaymış yəni.

Ona görə də hələ məktəblidir Əsmər. Səkkizinci sinifdə oxuyur.

(Qarabuğdayı, qaraqaş, qaragöz, qıvrımsaç. Məktəbli geyimində şən qızcığaz portreti təsəvvür edin. Həm də ağıllı və cəsarətli baxışları olan əsmər qızcığaz.) Evdə ayrıca dərs masası, masaüstü lampası, kitab-dəftəri, məktəb çantası da var. Axşamlar masanın üzərinə töküb-dağıtdığı kitab-dəftəri Səhərlər çantasına yığmaq da var. Lampasını söndürmək də. Hər həftənin axırı gündəliyini yoxlayıb qırmızı qələmlə imzalamaq da var. Hələ əvvəllər ara-sıra valideyn iclaslarına gedib, gözdən uzaq bir yerdə oturmaq da vardı. Dərs ilinin axırı Əsmərlə birgə məktəbin buraxılış tədbirlərini seyr etmək də…

Əsmərdən əvvəl iki oğlum oxuyurdu o məktəbdə. Biri beşinci, biri yeddinci sinifdə qaldı. Xanımım da bir vaxtlar o məktəbdə dərs deyirdi. Mənə görə işdən çıxardılar. Heç istəmirdi, prezidentliyə namizəd olum. İstəmirdi. Amma mən o vaxt üçün heç də peşman deyiləm. Hamının baxışında, danışığında, davranışında öz qüdrətini görmək maraqlı idi. Elə xanımının da, elə övladlarının da. Gücünü yox a, qüdrətini.

Mən hökmlü deyildim, mən səbirli və cəsarətli idim. Dovşan kimi deyildim yəni. Uğurlu idim. Yooox, niyə peşman olum ki? Heç peşman deyiləm o vaxt üçün. İndi çox qorxaq olsam da. Lap Dovşan kimi yəni…

Əslində, dovşanlar çox zəif, müdafiəsiz canlılardır. Ona görə də daim ətrafdan ehtiyatlanmaq məcburiyyətindədirlər. Ona görə də səksəkəli görünürlər həmişə. Qorxaq yəni…

Məncə, bu dünyada ən qorxaq canlı Dovşandır. Lap ruhu sındırılmış adam kimi qorxaq yəni… Nə bilim, bilmirəm. Hər halda mən özüm haqda düşünəndə dovşandan başqa, heç nə gəlmir ağlıma.

Çarpayımla üzbəüz divardan asılmış əsmər rəsmin aşağı küncündən imzamı elə də yazmışam: «DOVŞAN»…

Bu gün barmağım bir az ağrıyır. Dünən axşam çarpayıdan yıxılanda əzmişəm. Dizim, alnım da bərk dəyib döşəməyə, əslində. Şişib qaralmaqlarından bilirəm. Amma barmağım daha çox ağrıyır. Sol əlimin barmağıdır axı. Bəlkə, sağ qolun əvəzinə də ağrıyır, ona görə. Gecə ağrıdan yata bilməmişəm. Əsmərsə istəmir, gündüz yatım. Qorxur, yatsam, ta oyanmarıq. Mənsə özümü uzun bir yolun yorğunu kimi hiss edirəm. Yaman yuxum gəlir…

Bakı – 18 aprel, 2019

Əli Babazadə. Yağışlar şəhərinin kitabxanası

Köhnə taxta qapını yüngülcə itələdim. Nostaljik toz qoxusunu dərindən… dərindən qoxladım. Oxu zalının üç geniş pəncərəsindən içəri dolan işıq rəflərin arası ilə süzülərək divarlarda, addım qoyan kimi taxtaları cırıldayan döşəmədə, masaların üzərində, masanın üstündəki köhnə, qulpu paslanmış eynəyin şüşələrində gəzişirdi. Vızıltısı əsəblərə iynə batıran ağcaqanadlar masanın üzərinə qonanda sakitləşir, sağa-sola vurnuxub təzədən qanadlanırdılar. Masanın üzərində bir qalaq saralmış kartoçka vardı… Ehtiyatlı addımlarla masaya yaxınlaşdım, gözlüyümü qaşlarımın arasına möhkəmcə sıxıb boynumu irəli uzatdım: masanın arxasındakı rəfdə kitablardan heç birinin yeri dəyişməmişdi: Dante, Dikkens, Feyxtvanger, Lermontov, Homer, Molyer… Xronologiyanın pozulmasına iyirmi il əvvəlki kimi dilxor oldum.

I

O vaxt bütün kitablar kirillcə idi, hamısından da Lənkəranın havası kimi nəm toz qoxusu gələrdi: kitab iyi verərdi kitablar…

Həmin gün B.L.X..-yə (onu da deyim ki, indi də onun əsl adını bircə mən bilirəm) oğurladığım kitabı hədiyyə

verəcəkdim. Verdim də. Kitab oğurluğuna qurşandığım üçün özümü heç vaxt günahlandırmamışam. Hərdən mənə elə gəlirdi ki, Tanrı özü bu işə ürəkdən köməklik göstərir və şərait varsa, kitab oğurlamamaq «böyüyün əlini geri qaytarmaq» kimi bir hörmətsizlikdir.

Bu kitabxana isə oğurluq üçün ən əlverişlisi idi: rahat-rahat fondda dolaşmağıma icazə verirdilər, gombul kitabxanaçı arvadlar qeybətin şirinliyinə elə aludə olurdular ki, göz açıb arxamca səslənənəcən kəmərin altını azcana boşaldıb, kitabı üsulluca yerləşdirməyə macal tapırdım. Sonra əlüstü bir kitab seçib, qeydiyyata saldırır, bu kitabı da üç günə oxuyub bitirirdim ki, yenisini oğurlamaq üçün kitabxanaya qayıtmağa bəhanə olsun. Məndən olsa, oxumazdım, çünki mənə ancaq oğurladıqlarım maraqlı idi; burnunu hər şeyə soxan B.L.X. kartoçkamda adı yazılmış hər kitab haqqında gicbəsər sualları ilə zəhləmi tökməsəydi…

Kitablara böyük həvəs saldığımı görüb B.L.X. mənimlə dostlaşmışdı. Açığı, dərin biliyinə görə bu qocaya həsəd aparırdım. Deyəsən, o, heç bunu hiss etməmişdi də.

Biz saatlarla, elə olurdu ki, B.L.X. – nin iş saatının qurtardığı axşam saat beşəcən, hər şey haqqında təngə gəlmədən o qədər uzun-uzadı söhbətləşirdik ki, evə gec qayıtdığım üçün əzilib-büzülərək valideynlərin danlağına boyun əyməli olurdum. Sovetlərin təzəcə dağıldığı, keçinin can hayına qaldığı həmin ərəfələrdə bizim B.L.X. ilə müzakirə etdiyimiz mövzular yəqin ki, hər kəsə son dərəcə mənasız görünərdi.

Mənim şişirtməçiliyim öz yerində, amma B.L.X. doğrudan da qəribə adam idi. Bəzən elə olurdu ki, kreslosuna yayxanıb iyirmi dəqiqə tavana baxardı: uzunsov elektrik lampalarının ağ işığı mane olduğundan eynəyini gözündən götüüb əlində tutardı belə vaxtlar, eynək də səbrlə iyirmi dəqiqə boşluqda yellənərdi. Hər dəfə gəlib kitabxanada onu bu vəziyyətdə tapanda dilxor olurdum, çünki təxəyyülü ilə məşğul olanda B.L.X. mənə məhəl qoymazdı.

Açığı, bu qoca ifrat bilmişliyi ilə hərdən lap adamın gözündən düşürdü. Belə vaxtlarda mənə elə gəlirdi ki, bu qırışlı, yastı-yapalaq, təpəsindəki tükləri tökülmüş alnın altında ən vacib şeydən başqa hər şey var. Amma hər gün ondan öyrəndiyim kitab-kitab biliyin heç biri bir-birinin təkrarı olmurdu, bu biliyi ilə B.L.X. «Corpus Jaberanium» un müəllifini də rahat-rahat təəccübləndirə bilərdi.

Məndə bu cür qeyri-adi kitablara marağı da B.L.X. oyatmışdı. Latınca kitablar təzə-təzə nəşr olunmağa başlanmışdı. Lələyün kimi indiyəcən tanımadığım müəlliflərə cummuşdum. Xorxe Luis Borxesin bir kitabını təhvil vermək üçün masasının üstünə qoyanda. B.L.X. eynəyinin üstündən kitabın adına nəzər salıb, zəndlə bir neçə an üzümə baxdı, bir qədər saymazyanalıqla, – hər halda onda mənə elə gəlmişdi, – yazı yazmağına davam edərək, sezilməz dərəcədə xəfif nifrətlə mızıldandı:

– Şarlatan…

B.L.X. mənimlə yaş fərqini nəzərə almadan danışardı həmişə, bütün fikirlərini açıq-aşkar, necə var, elə də söyləyərdi. Mən indi

onun bu dediyindən heç nə anlamamışdım. Birinci dəfə idi, hər hansı bir kitab haqqında bu cür nifrətlə danışırdı. Narazılığımı bildirmək üçün qımıldandım.

B.L.X. şəhadət barmağının oynağı ilə kitabın qalın, parlaq, quru cildinin üzərinə döyəcləyərək sözünü belə yekunlaşdırdı:

– Özün oxumusan da… nə yazılıb bu kitabda? Sonsuz vərəqləri olan bir kitab varmış… ha-ha-ha! Oğul, indi sən mənə de, əgər belə bir kitab varsa, – onu da deyim ki, mənim üçün heç fərq etmir, – belə bir kitab haqqında nəsə yazmaq hansı əxlaqa sığar? İkincisi, əgər bu kitab yoxdursa, – ki məncə yoxdur, – bu nə nağıldı? Üçüncüsü, lap deyək var, sənə, bax elə sənə – həmin kitabın özü maraqlı olardı ya o kitab haqqında hansısa şarlatanın yazdığı ədəbi mətn?

Onun bu yersiz müdrikliyi canımı elə sıxmışdı ki, başımdan elədim:

– Mən hələlik kitab yazmaq istəyirəm, sonrasına baxarıq.

– Həqiqət yazmaq üçün bəxş olunmur… İndi ki, gedirsən, deyim ki, nə qədər dəbdən düşmüş söz olsa da, hər «şey axırda əvvəlinə qayıdır»

Bu söhbətdən sonra aramız soyudu.

Mən ondan sonra da romanlar oxumağa davam edirdim. Amma içimə şübhə düşmüşdü. Olurdu ki, romanın ən şirin yerində qəfildən qabağına qara pişik çıxan adam kimi diksinirdim, B.L.X.-nin sözləri yadıma düşürdü. Get-gedə bütün kitablara bu cür şübhə etməyə başladım. Məndə belə bir hiss yaranmışdı ki, bütün bu kitablar sonsuz vərəqləri olan kitabın

həyasızlıqla oğurlanmış səhifələridir. Bu fikir tədricən ağlımda möhkəm yer tutdu və bir-iki il sonra mən belə bir kitabın varlığına həqiqətən inanandan sonra qəribə elmlər haqqında araşdırmalara başladım…

II

Az-az olsa da, B.L.X.-nin kitabxanasına yeniyetmə qızlar da gəlirdi və kitab qoxusundan ehtiraslanan gənc adamın kitabxanada rastlaşdığı qızlardan birinə vurulmağı ən adi şeydir.

Kitab seçimini heç bəyənməsəm də, Sevdanın maraq və məhəbbətlə irilənərək zillənən işıqlı bəbəklərindən nə qədər desən kitab çıxarmaq olardı. Amma yenə də bu kitab seçmək məsələsi… Mən onda çox istəyirdim ki, B.L.X. ilə bizim söhbətlərimizdə üçüncü bir adam da iştirak etsin və haradasa belə bir dərrakəli qadının olduğunu fikirləşirdim. Bütün bu bitib-tükənmiəyən mövzuları artıq yaşlı B.L.X. ilə yox, yaşıdım olan gözəgəlimli, ağbəniz, nərmənazik, şux bir qızla bölüşmək istəyirdim. Bu istək çox şiddətləndiyi üçün mən əvvək-axır kimisə tapıb aşiq olmalı idim. Sevda ağbəniz, nərmənazik idi, səsində şuxluq əvəzinə çəkingənlik, özünəinamsızlıq vardı, amma onda mənim üçün hər şeydən vacib olan başqa bir cəhəti elə birinci gün sezməyim çətin olmamışdı: onda dalğınlıq halları tez-tez olurdu, belə hallarda ondan söz soruşanda eşitmədiyi üçün yanağı istilənib qıpqırmızı qızarır, çaşqınlıqla nəzərlərini sağa-sola yayındırırdı. Onu görəndə əl-ayağımı bir-

birinə dolaşdırmağıma bəs eləmişdi bu.

Sevda kitabxanaya elə də tez-tez gəlməzdi. Amma bircə dəfə onunla fondda birlikdə gəzməyə şansım olmuşdu. «Qədim nağıllar» ı axtarırdı. Gözündən yayınıb onun axtardığı kitabı gizlətdim. Vaxtı uzatmağa çalışırdım. Kitabları bir-bir götürüb-qoyurdum, özümü elə aparırdım ki, guya cidd-cəhdlə kitab axtarıram. Başımı qaldırmağa utanırdım. Duyuq düşdü. Tələm-tələsik bir kitab seçib, foeyə yönəldi. Əlimə keçən bir kitabı qapıb, arxasınca çıxdım.

B.L.X. Sevdadan kitabı alıb, cildinin arxasını çevirdi. Dodaqlarını təəccüblə büzüb, gülümsədi. Boylanıb kartoçka yeşiyinə göz gəzdirəndə kitabın adına göz atdım: «20 il sonra»…

İki il sonra Sevda Avropaya təhsil almağa getdi. Mən bir də onun haqqında eşidəndə Argentina səfirliyində işləyən tələbə yoldaşı ilə ailə qurmuşdu, Buenos-Ayresdə yaşayırdılar.

* * *

İndi uşaqlıq çağlarında mənə sehrli bir aləm kimi uzaq görünən Höttingen rəsədxanasında dissertantam. Bütün dünyada məni ezoterikanın ən məhsuldar tədqiqatçılarından hesab edirlər. Ra ilə əlaqə qurmaq üçün Misir piramidasında qadağa ayini icra etmiş yepiskop Alestio Baptistionun müəmmalı ölümündən sonra Ranın səs yazılarını saxlayan qardaşından müsahibə də almışam. Onu da deyim ki, mənəcən bu heç kəsə müyəssər olmamışdı.

Hesab edirəm ki, bunu etiraf etmək etikadan kənar sayılmaz: ezoterika deyilən şey cəfəngiyatdır. Bunu hər halda, hər kəs bilsə də, bir mütəxəssis kimi bunu etiraf etməyimdə düzgün olmayan nəsə olduğunu hiss edirəm, ümidvaram ki, bu həqiqətən qeyri-etik deyil. Dünyada sirr deyilən bir şeyin mövcudluğundan çoxdan əl üzmüşəm…

Sabah-birigün bu qədim Höttingen rəsədxanasının professoru təyin olunacam, amma lənkərandanqalma bir mövhumatçılıq indiyəcən məni tərk etməyib. B.L.X. – nin sözlərini hərdən xatırlasam da, bunun məndə yaratdığı təsirin mövhumatçılığımla bağlı olduğu gün kimi aşkardır. Amma hər mövhumat kimi mənim də şübhələrimdə həqiqətəoxşar nəsə var.

Bu gün mənim otuz üç yaşım tamam olur. Buenos-Ayresə dünən gəldim. Necəsə, Höttingendə daha dözə bilmirdim. Artıq bütün uğursuzluqlarımla barışacaq yaşda idim: beləcə, daha nə yeni bir riyazi formul kəşf etmək ehtirası, nə də Kerruak kimi dünyaca tanınmış bir romançı olmaq xəyallarının elə ancaq xəyal kimi qalacağını anlamışdım. Bu son şübhədən çıxıb biryolluq Bakıya qayıtmaq fikrində idim.

Amma içimdəki narahat səs kəsilməmişdi. Hələ beş-altı yaşlarından bu səs mənə dünyanın taleyini dəyişəcəyimi söyləyir. Hər halda otuz üç il…

Bu elə bir yaşdır ki, hər şeylə barışıb, adi bir heyvan kimi ölüb torpağa qarışmaq fikri daha adamı narahat etmir. Başa düşürsən ki, nə yazdığın romanlar, nə də başqa hər hansı bir icad səni xilas edə bilməz, hətta bu iddialı müasir elm ölümsüzlük iksirini kəşf

etsə belə.

Bunların əvəzində daha böyük, amma sakit-sakit iynələyən bir əndişə oyanır zehində, adam özünü tələkək kimi hiss edir, tez-tez özündən soruşur: nə dünya dəyişdi, nə məndən bir zibil oldu, bəs bu komediya nə idi? Otuz üç ildi nə sayıqlayırdı bu səs?… Bu bəlkə də qisas almağa gücü çatmayan əbləhlərin fəlsəfəsidir, amma… bunda da həqiqətəoxşar nəsə var…

Dünən axşam Belqrano küçəsində Hikmətlə də görüşdük. Hikmət Sevdanın həyat yoldaşıdır. Mədəni oğlandır. Yaxşı ədəbiyyat bilicisidir, bir xeyli tərcüməsi də var, amma özünün yazmağı yoxdur. Türkiyədə yaşamaq planlarından və təbii ki, Kortazar və Borxes haqqında danışdı. Luis Borxes bir müddət indi şam etdiyimiz Belqrano küçəsində yaşayıbmış. Argentina Milli Kitabxanasına necə getmək lazım olduğunu izah etdi, Sevdanın da mənimlə gələ biləcəyini söylədi: özünün isə sabah işi varmış. Minnətdarlıq etdim, amma bir az dilxor oldum…

* * *

İspan bələdçi bizi dairəvi, qaranlıq bir otağa gətirdi. Elə təqribən Qız qalasının içərisi genişliyində idi. Divarda kitablar üçün rəf oyulmuşdu, iki-üç əsr yaşı olan cild-cild qalın kitablar muzeylərə xas səliqə ilə düzülmüşdü rəflərə. Rəfdən də yuxarıda divarın buz kimi soyuq daşları qırmızı parça ilə üzlənmişdi, parçanın da üzərində pərgarla çəkic sallanırdı.

Sevda aramızda tərcüməçilik edirdi:

– Borxes hekayələrini burada yazırmış. Masonik simvollar, qədim kitablar, bu cür dairəvi hücrələr onun təxəyyülünə qanad verirmiş…

Həmin maraqla nəsə axtaran, uşaq təəccübü ilə yerində bir an sakit dura bilməyən parıltılı bəbəklər…

– Borxesin bir şərqli bukinist dostu olub. Sağlığında bu otağa yalnız onun girməyə icazə verirmiş. Ah… Bu şərqli kişi ona qədim kitablar gətirirmiş, həmin kitabların bəzisi indi də muzeydədir, bəzilərinin isə yerini heç kəs bilmir. Hətta deyirlər ki, Borxes qələmə aldığı bütün əhvalatları həmin kişidən eşidib…

Hekayənin sonluğunu yadıma salmağa çalışırdım: «… Yarpağı gizlətmək üçün ən yaxşı yer meşədir, mən də bu lənətli kitabı içərisində doqquz yüz min kitab olan Argentina Milli Kitabxanasında gizlətdim. Sağ tərəfdən pilləkənlərlə qalxırsan…»

Əlbəttə, o qədər sadəlövh deyildim, Borxesin uydurduğu bir nağıla inanaraq gəlməmişdim bura. Hər halda burda nəsə olmalı idi, başqa cürünü təsəvvür etmək istəmirdim.

Soyuq-soyuq Sevdaya çöndüm:

– Is there a book among them somewhere here? – əlimlə kitabları göstərdim. Qadın çiyin çəkdi. – Soruş… bu bukinist haqqında bir az geniş danışsın…

Özüm isə saymazyanalıqla kitabları, çəkic-pərgarı, divara həkk olunmuş tamplier simvollarını maraqla nəzərdən keçirirdim.

– Deyir ki, burada heç nə danışa bilməz…

Diksindim, təəccüblə çöndüm. Qadın mənə vizitkartını uzatdı. Bir dəqiqəyəcən əlimdə tutub uzun müddət anlamsız-anlamsız qadının üzünə baxdım…

* * *

Anna şirindil, mehriban, həyat dolu qadın idi. Özünün dediyinə görə əlli üç yaşı vardı. Əslində ingiliscə mükəmməl bilirmiş.

– Biz Borxeslə iyirmi ildən də çox birgə yaşadıq. Axırda hər şey üzə çıxacaqdı deyə, o çoxdankı rəfiqəsini razı salıb nikah kəsdirdi. Beləcə, biz münasibətimizlərimizi hamıdan gizlətdik, hər şeyi ört-basdır edə bildik. Nikahdan dörd ay sonra o, öldü. – Anna ağlamsındı. – Axır günlərində tez-tez yuxuda diksinirdi, hövüllənib tər içində oyanırdı. Bir dəfə lap möhkəm qorxmuşdu. Yatağın içində əllərimdən tutub yalvarırdı: Anna, Anna… Sən yaxşı qadınsan, mən danışacam sənə hər şeyi, danışacam… Mən günahkaram, Anna… İndi biz sonsuzacan əzaba məhkumuq… mən nəvələrimin də taleyini qaraltdım, Anna… Mənim minlərlə nəvəm… Onların hərəsi bir labirintdə azacaq…

Anna gözünün yaşını sildi, zorla gülümsəməyə çalışdı. Onun gülüşündə qorxunc, məşum bir şey vardı, adam lap ağlamaq istəyirdi. Acı likörü başına çəkib əllərimdən tutdu:

– O, axırlarda bərk qorxurdu… Mən indi də bunun səbəbini, onun mənə nə deməyə çalışdığını anlamıram. Onun vəsiyyətinə

əməl edib kitabxanaya işə düzəldim. O deyirdi ki, bütün yazdıqları cəfəngiyatdır, kitabın əsli kitabxanadadır və mən o kitabı sahibinə qaytarmalıyam ki, onun ruhu rahat olsun. – Anna hönkürdü. – mən axı, hiss edirəm, hiss edirəm bunu… onun necə əzab çəkdiyini… hər gecə yuxuma girir, hər gecə…. Anna, kitabı sahibinə qaytar, yalvarıram sənə, Anna… Sonra ruh kimi də yox olur. Hövlnak oyanıram. Axı mən nə kitab, nə də onun sahibi haqqında heç bir şey bilmirəm. Tamamilə heç nə bilmirəm…

Burnunu çəkdi, için-için ağlayırdı, bütün vücudu əsirdi. Yüngülcə, məhəbbətlə əllərini sıxdım.

Toxtayanda davam etdi:

– Mənə bir bukinistdən danışırdı… Ona qəribə kitablar gətirən şərqli qocadan. Və deyirdi ki, bütün yazdıqlarını məhv etsələr, o rahat ölə bilər… Amma artıq gec idi, bütün dünyada onun milyonlarla kitabı dərc edilmişdi. Qoca şərqli haqqında xatirələr ona əzab verirdi. «Anna… mən indi aydın görürəm, lap aydın dərk edirəm hər nəyi… Şərqli kişi sonuncu dəfə mənə xəbərdarlıq edəndə demişdi ki, sənin yazdığın hər hekayəyə görə dünyada bir insan doğulur, çünki bunları kimsə oxumalıdır, hekayə dünyaya doğulubsa, burulğan kimi özünə yol açıb öz qəbrini tapmalıdır. Bu qəbir oxuculardır… Gələcəyin oxucuları… Sən bunun məsuliyyətini hələ dərk etmirsən… Axı hələ heç kəs sonsuz sayda hekayə uydura bilməz… Anna, indi başa düşürəm, Anna… çox qorxuram, mən məmnuniyyətlə hər şeyi məhv etməyə razıyam. Onların hamısı azacaq, Anna…»

Yenidən ağladı. Belqrano küçəsinin işıqları sönəndə restorandan çıxdıq. Annanı evinə qədər ötürdüm. Metroda sonuncu dəfə ayrılanda məni möhkəm-möhkəm qucaqladı.

* * *

Lənkəran yağışlı yerdir. Dünyanın heç harasında çiskin bu qədər yeknəsək və mehriban deyil. B.L.X. 2017-ci ilin dekabrında öldü. Dəfnə çata bilmədim.

* * *

Milçək masanın üzərindəki saralmış kartoçkanın üzərinə qondu. Istər-istəməz kartoçkaya göz atdım, siyahıdakı birinci kitabın adını oxudum: «20 il əvvəl…»

Həmid Piriyevin. Qafqaz rəqqası

Sirkin binası Petrovski[1] meydanındadı[1]. İri taxta binadı. Həmşəripalanından[2] yaxındı bura. Evdən çıxıb üzüaşağı düşürəm, beş-on dəqiqəyə çatıram işə. Mən sirkin atlarına baxıram.

Tövlələr elə sirk binasının dalındadı. İki dənə rus ayısıdı, on-on iki dənə itdi, iki dənə tülküdü, bir də atlar. O biri heyvanlara baxanlar heyvanlarla bir yerdə Rusiyadan gəliblər. Əvvəl atları da Rusiyadan gətiribmişlər, elə eşitmişəm. Amma oranın atları buranın havasına öyrəşə bilməyib. Onunçün o atları qaytarıblar Rusiyaya, yerli at alıblar. Üç cüt atdı. Əsl dağ cinsi. O vaxt at almaqçün soraqlaşıb bizim kəndə gəlmişdilər. Bir cütünü bizdən aldılar, iki cütünü başqa çobanlardan. Dayçalardan seçdilər ki, öyrətmək asan olsun. Bir də atlara baxmağa adam lazım idi, atam məni göndərdi. Əvvəl-əvvəl gəlmək istəmirdim, dağda sürüylə qoyunumuz var, nə işim qalıb şəhərdə?

Amma atam dedi, get. Atlarımız başqa ələ düşməsin.

Yaxşı oldu gəldim. Düzdü, şəhər çox tozludu, quraqlıqdı, yaşıllıq demək olar yoxdu, amma işim gəlirlidi. Pulumu həftəlik alıram. Xeyli artırmışam. Fikrim var, pulun üstünü düzəldim, yaraşıqlı fayton alım. Faytonçuluğun gəliri bir az da çoxdu.

[1] Petrovski meydanı – indiki Muzey Mərkəzinin yeri.

[2] İndiki Sovetski ərazisində fəhlə məhəlləsi. İrandan gələn hambal və fəhlələr adətən burda yaşayırdı

Məhəllədəki erməni faytonçulardan soruşmuşam.

Mən həmşərilərlə qalıram. Ənzəlidən gəliblər, ikisi portda hamballıq eləyir, biri arabaçıdı.

Səhər ertədən durub gəlirəm tövləyə. Atların altını təmizləyirəm, yemini, samanını verirəm, qaşovlayıram. Günortaüstü atsürən qızlar gəlir, atlarla məşq eləyirlər. Tamaşa həftədə bir dəfə, cümə günləri olur, amma məşq hər gündü.

Atsürən qızlar üç nəfərdi, başçıları Vera Mitriyevnadı. Atlarla bir oyun çıxartırlar ki, gəl görəsən. Atın üstündə dombalaq aşırlar, atları halqalardan keçirdirlər, axırda da Vera iki atın üstündə dayanır, hər ayağı bir atın belində. Axşamacan dincələ-dincələ məşq eləyirlər, axşam təzədən atları aparıram tövləyə, rahatlayıb evə qayıdıram.

Məşqdə şalvar geyinirlər. Birinci dəfə görəndə ağzım açıq qalmışdı. Bizdə də arvadlar tuman geyinir paltarın altından, amma bunların geyindiyi tuman deyil, əməlli-başlı kişi şalvarıdı. Başları da açıq. Düzdü, məşqdə saçlarını yığıb bağlayırlar, amma tamaşa vaxtı saçları açıq olur. Tamaşa paltarları da başqadı. Sinəsi açıq paltar geyinirlər tamaşada, paltarın ətəyi də açıqdı, atın belinə minəndə ayaqları görsənir. Tamaşaya qızlara görə baxıram, ən çox Veraya görə. Şəhərdə bütün rus, erməni qızları başaçıq gəzir, amma bunlar kimi ətəyi kəsik paltar geyinən yoxdu.

Vera göyçək qızdı, o birilərdən də göyçəkdi. Onun atlarına xüsusi qulluq eləyirəm, özünün də sağ-soluna keçirəm, amma məni görmür köpək qızı…

İndi məni də tamaşaya salıblar. Yaxşı oynamaq bacarıram, dağıstanlılardan öyrənmişəm. Kənddə toy olan kimi məni araya alıb oynadırdılar. Şəhərə gələni kəndçün çox darıxırdım. Hərdən xəlvətə salıb tövlədə-zadda oyanyırdım. Bir dəfə sirkin[3] ağası məni gördü. Yanına salıb apardı səhnəyə, dedi oyna. Dedim, ağa, dumbul olsa, lap əla olar. Sirkin dumbulçalanını çağırtdırdı. Dumbulçalan soruşdu, nə çalım? Dedim, ləzgihəngi vur. Dumbulçalan təzə başlamışdı ki, gözüm sataşdı qıraqdakı bıçaqlara. Artyomun bıçaqlarıydı, tamaşada bunlarla oyun göstərirdi. Bıçaqları keçirtdim belimə, başladım oynamağa. Hər dəfə dövrə vurandan sonra bıçağın birini burnumun üstünə qoyub başımla dala atırdım, bıçaq yerə sancılırdı. Bıçaqlar qurtaranacan oynadım. Bütün fikrimi oynamağa vermişdim. Qurtarandan sonra gördüm bütün sirk tamaşama durub.

Sirkin ağası dedi, bu gündən başla gündəlik məşqlərə, səni də proqrama salıram. Tamaşa vaxtı çıxıb oynayarsan.

Səhərdən gəlib atlara baxırdım, günorta oynayırdım, axşam da atları rahlayıb evə gedirdim. Mənimçün çərkəz paltarı da almışdılar.

Birinci tamaşadan sonra həftəliyimi alanda gördüm pulum artıb. Ağa oynamağa görə pulumu artırmışdı. Dedim, «nə yaxşı şeymiş bu, gələndən oynasaydım, indiyə faytonun pulu çıxmışdı».

Üstündən bir-iki ay keçdi. Bir gün ağa sirkə gələndə yanında

[3] Bakı teatr-sirkinin direktoru V.İ.Vasilyev-Vyatski.

bir ağbaş kişi də vardı[4]. Çənəsində saqqal saxlamışdı. Dedilər ki, bu kişi gəzən şəkillər çəkir, burda göstərmək istəyir.

Cümə günü adam həmişəkindən çox gəlmişdi. Tamaşa əntiqə keçdi. Mən də həvəslə oynadım. Tamaşa qurtarandan sonra iki nəfər səhnədən döşəkağı asdı. Sirkin sil-süpür işinə baxan nökər Vəlidən soruşdum ki, bu nəmənədi? Dedi ki, ağbaş kişi bunun üstündə şəkil göstərəcək.

Bütün işıqları söndürdülər. Həmin döşəkağının üstünə işıq düşdü. Bir də gördüm işıq dönüb oldu qərib bir yer. Bir suyundan Ququşka vağzalına[5] oxşayırdı. Gördüyümü anışdırmağa çalışırdım ki, uzaqdan parovoz göründü, tüstü buraxa-buraxa üstümüzə gəlməyə başladı. Bu parovoz hardan çıxdı belə? Camaat dəydi bir-birinə, rus arvadları qiyyə çəkirdilər. Parovoz çatıb dayandı…

İşıqlar yandı. Şlyapalı kişilər ağbaş kişiyə yaxınlaşıb əlini sıxırdılar. Mən gedib döşəkağıya baxdım. Adi çit parça idi. Görəsən, Ququşka vağzalı, parovoz bunun üstündə necə peyda olmuşdu? Evə çatanda bunu həmşərilərə danışdım, mənə güldülər. Dedilər, sirkdə oynamaqdan başıma hava gəlib.

Bu biri həftə ağbaş kişi yenə gəldi. Ağa məni çağırıb dedi ki, «oyna, baxaq. Dumbulçalan hələ gəlməmişdi», ağa dedi, «ziyanı yoxdu».

---

[4] Fotoqraf, rejissor, Bakı fotoqrafiya dərnəyinin yaradıcısı Aleksandr Mixayloviç Mişon.

[5] Ququşka vağzalı – Bakı vağzalı. Vağzal təzə açılanda Sabunçudan bura ququşka (kukuşka) işlədiyi üçün yerli camaat vağzalı belə adlandırırdı.

Oynayandan sonra ağbaş kişi ağaya nəsə deyib getdi. Ağa dedi ki, «bu kişi səni sinematoqrafa çəkmək istəyir». Soruşdum, «O nəmənədi?» Dedi, «keçən həftə gəzən şəkillər göstərdilər e, ondan».

Dedim, ağa, «mən qorxuram, birdən bu ağbaş kişi məni tutub salar döşəkağının içinə, çıxa bilmərəm».

«Ağa güldü», dedi, «sabah gəlib çəkəcək».

Mən doğrudan qorxurdum. Axı parovoz yox idi. Ağbaş kişi onu özüylə gətirməmişdi, parovoz döşəkağının üstündə peyda olmuşdu. Sonra da döşəkağını yığışdırıb aparmışdılar. Birdən məni də döşəkağıya büküb apardılar, sonra nolacaq? Yox, sabah kişi gəlsin, deyəcəyəm ki, çəkilmirəm. Güclə deyil ki. İstəmirəm də.

Məşqdən sonra atları aparanda Vera Mitriyevna dedi ki, «bəxtəvərsən, səni sinematoqrafa çəkəcəklər, kaş məni də çəkərdilər».

Bir sevindim, bir sevindim, gəl görəsən. Aylardı bu qızdan söz ala bilmirdim, indi özü durub gəlib yanıma. Sağ ol, ağbaş kişi!

Bu biri gün ağbaş kişi özüylə bir qutu gətirdi. Mən tamaşa paltarımı geyinib gəldim. Bütün sirk baxmağa yığışmışdı.

Kişi dedi «başlayın».

Dumbulçalana göz elədim, bir ləzgihəngi oynadım ki, sözlə deməli deyil. Bir gözüm Verada idi. Oynayıb qurtarandan sonra gözlədim döşəkağını asıb göstərsinlər, amma kişi qutusunu yığışdırıb getdi.

«Ağadan soruşdum ki, bəs göstərməyəcəklər?»

Dedi, «hələ yox, əvvəlcə nəsə yuyulmalıdı». «Lent» dedi, «nə» dedi, «yadımda qalmadı».

Üstündən iki həftə keçdi.

Cümə günü ağa mənə dedi ki, «sən bu gün tamaşada oynamayacaqsan, çünki tamaşadan sonra sənin çəkildiyin sinematoqrafı göstərəcəklər»[6].

Bir az kefim pozuldu, çünki hər dəfə oynayandan sonra ağa mənə artıq pul verirdi, bu dəfə oynamaq yoxdusa, pul da yoxdu. Amma eybi yox, əsas odu, Vera döşəkağıda mənə baxacaq.

Tamaşadan sonra Vera gəlib yanağımdan öpdü, dedi ki, «əntiqə çıxıb».

Ürəyim atlana-atlana evə qayıtdım.

Yolda həmşərilərçün halva aldım. Evə girəndə həmşərilər soruşdu «nolub?»

Dedim, «o dəfə sizə döşəkağının üstündəki parovozu deyirdim a, bu gün məni də elə göstərdilər».

Yenə mənə güldülər. Amma xətrimə dəymədi. Çay dəmlədim, halva yedik. Çay içəndə həmşərilər mənə dedilər ki, «göstər görək, o döşəkağı nə məsələdi? Necə olur o?»

Mən də bilmədim necə göstərim.

Dedim, «elə bil, divardan döşəkağı asıblar, mən onun üstündə oynayıram, həm də bu tərəfdə oturub öz oynamağıma baxıram».

Yenə güldülər. Fikirləşdim, gərək bir dəfə bunları tamaşaya aparım, özləri görsün. Həmşərilər durub öz otaqlarına keçdilər. Onlar üçü böyük otaqda yatırlar, mən balaca otaqda tək

[6] «Qafqaz rəqsi» xronikası ilk dəfə 1898-ci il avqustun 2-si nümayiş etdirilib.

yatıram. Otaqların arasındakı qapıya çit parça asmışıq. Onlar çırağın işığında soyunanda kölgələri döşəkağıya düşdü. Eyni sinematoqraf kimi!

Çağırdım onları, tez bura gəlin, tez.

Üçü də hövlnak yanıma qaçdılar.

«Soruşdular, nolub?»

Əlimi çit parçaya uzadıb dedim, «sizə sinematoqrafı göstərmək istəyirdim».

«Göstərə bilmədim. Kölgələr itmişdi…»

Ataqam. Gecəgörənlər

Bir-birimizi «dostcan» çağırırıq. Bizim dünyamızda adın dəyəri yoxdur, çünki ad insanları ayırmaq üçündür.

Yay aylarında gecədən xeyli keçmişə qədər yataqxananın yanındakı parkda gəzib söhbətləşməkdən doymuruq. Bizi içində «dünya» sözü olan suallar birləşdirib.

– Dostcan, dünyada ən qoca ağac hardadır, bilirsən? – bugünün ilk sualını verir.

Bu sualı bir dəfə radioda eşitmişəm, cavabını bilirəm, amma söhbəti korlamamaq…

Ah, yox, söhbətin tamını qaçırmamaq üçün deyirəm:

– Bilmirəm, dostcan, hardadır? – və onun qımışdığını, üzünə uşaq sevinci qonduğunu hiss edirəm.

– Livanda – deyir, «Nuhun zeytun bacıları»[7] nı adbaad sadalayır, enboylarını saniyəsinə qədər söyləyir.

Cavabdan məəttəl qaldığımı sezdirmək üçün içimi çəkirəm.

Qaydamız var: indi sual vermək sırası məndədir.

– Dostcan, dünyada ən gözəl insan səsi hansıdır?

O, hörüb sinəsinə salladığı bir tay qulac saçını arxaya atır. Saçının ucu üzümə dəyir.

– Mənimki baritonlarla tutur – deyir, – bas səs məni darıxdırır, soprano qıcıqlandırır.

---

[7] «Nuhun Zeytun Bacıları» – livanın Əl-Bətrun bölgəsindəki altı min beş yüz illik on altı zeytun ağacı.

– Bilirsənmi, baslar əyyaş, baritonlar şorgöz olur? – gülürəm.

– Hə, eşitmişəm. Tenorların da abdal olduğunu deyirlər. Baslarla baritonlar tenorlara həmişə paxıllıq eləyir.

O, parkın hər daşını tanıyır, çünki çoxdan burdadır. Mən isə yataqxanaya təzə gəlmişəm. Sənədlərimi tanışlıq üçün yataqxana müdirinə verib gözləmə otağına keçəndə, müdir məndən dəhlizdəki xanımı çağırmağı xahiş etmişdi, mən də dəhlizə çıxıb: «Müdiri gözləyən xanım kimdir?» soruşmuşdum. O, yavaşca qoluma toxunub minnətdarlıq bildirmişdi.

Hə, gizlətmirəm, səsinə vuruldum; alabəzək gözək kimi bir-birinə sarınmış üçqatlı səsi Baxın «Fa minor xoral prelüdiyası»nın orqan borusunda boğulan son notuna bənzəyirdi. İndiyə qədər də onun səsinin bütün çalarlarını sezmək üçün çənəmi qabağa uzadıb boynumu qısıram.

Adamların çoxu təksəs olur. Heyf. Nə qədər ağıllı, amma ölüsəs adama rast gəlmişəm! Onları dinləmək cəhənnəm əzabıdır.

Həyatın yalnız səslərdən ibarət olduğunu qavrayıb qəbul eləyəndən sonra yaşadığım yeni hisslər içində ən gözəli çoxsəsli adamların cazibəsi oldu.

«İnsanları bir-birinə çəkən onların səsidir. Səsi keyimiş, yanmış, solub bozarmış adamlar var, amma səssiz adam yoxdur. Səadət də elə gözəl səslərin qarşılıqlı köklənməsidir» – dostcandan bunu ilk dəfə eşidəndə dodağım qaçmışdı. Sonralar səsin tilsimini özüm öz canımla duydum.

Yaxınlıqda bir park da var, amma bu park ondan qat –

qat rahatdır, çünki burda daşları yerə səliqəli düzüblər; hamar, çıxıntısız, daşların arası sıx. Ayağımız bir dəfə də ilişmir. Gülləri də qəşəngdir. Parkda bir dənə də qızılgül kolunun olmaması ikimizi də sevindirir.

Qoca çinarın yanından keçəndə dayanırıq. Çinarın xışıltısı ayrı cür gəlir. İkimiz də səsin fərqli olduğunu əlbəəl duyuruq. Üstəgəl, ətrafdakı qoxu da fərqlidir.

«Dostcan, ehtiyatlı ol, – deyib qolumdan dartır, – deyəsən ustaçalar çalanın ağzını yenə açıq qoyublar, – şikayətlənir, – mənə baxma, mən yolları şeir kimi əzbərləmişəm, tək çıxanda çubuğunu götür». Dalınca da azaylanır: «Dünyanın heç yerində acıağız ağac tapmazsan, dostcan. Ağacların ən fağırı isə çinardır. Onları dinləmək üçün ürəyinin qapısını açan az adam tapılar».

Sevimli oturacağımıza yanaşırıq. Tutulub. Dayanırıq. Oturanlar bizi görüb gülür. Uzaqlaşırıq. Onlar daha bərk gülür. Yuxarı sinif şagirdləridir; oğlanla qız; gülüşlərinin tembrindən bilinir. Ayrılıqda şirin gülüşləri var, amma bir yerdə güləndə, səslərinin amplitudu bir – birini döyüb gülüşü qağayı qığıldaşmasına çevirir. Birləşsələr, ömürləri qovğa içində çürüyəcək.

O biri oturacaq çayxananın şüşə divarına bitişikdir, yerindən tərpətmək də olmur, ayaqlarını betonlayıblar. Küylü, ruhsuz, maqnitsiz yerdir. Səsin qədrini bilməyəndə küyə çevrilir. Bir neçə dəfə orda otrumağa məcbur olmuşuq. Çayxanada bütün danışıqların bomboz olduğunu bilirik.

Burda bizi yaxşı tanıyırlar. Bizə hələ ad da qoyublar –

«yarasalar». İncimirik.

* * *

Bir uşaq şüşəni taqqıldadıb cır səslə bizi içəri çağırır.

«İlahi, belə acı səslə bu uşaq həyatda özünə necə yer tapacaq?!» – dostcan qulağıma pıçıldayır.

«Tanrı səsini yetirsin! – deyirəm. – Bişər səsi, inşallah».

Uşağa «yox» deyirik.

Bir az keçmiş uşaq qarşımızda dayanır.

Deyir:

– Əmi, müdirimiz İcra başçısının şərəfinə iftar süfrəsi açıb, bir azdan başçı özü də gələcək. Müdir tapşırdı, sizi də çağırım.

– Lütfü artıq olsun müdirin, cocubala, qoşularıq, – deyirəm.

«Dostcan, gedim baxım görüm bizim oturacaq boşalıbmı?» – deyib qalxır, tezliklə də qayıdıb cavanların getdiyini bildirir.

Qapalı dünyamızın kiçik duracağına qayıdırıq. Yerimizi tutan kimi soruşur:

– Dostcan, bütün dünya indi professor Herminder Duanın tapıncından danışır, sən nə düşünürsən? Səncə, bizi ayrı dünyaya aparmaq mümkün olacaqmı?

– Bilmirəm, – professorun beşqatlı gözdə tapdığı altıncı qatın nəyisə dəyişəcəyinə inamsızlığımı gizləyib dostcanın umudunu qırmamaq üçün səsimin enerjisini majora kökləməli oluram, – hər halda, həbsxana divarının bir kərpici də götürülmüş olur.

– Mən başqa dünyaya qayıtsam, tetraxromat[8] olmaq istərdim, – ulduzlarla danışırmış kimi üzünü göyə tutur.

– Hə, dostcan, heyf ki, ancaq qadınlar tetraxromat ola bilər. Mənim şansım yoxdur. Eybi yox, mənə üçxromatlıq da yetər… Daltonik olmağa da hazıram.

Son cümləni nahaq yerə dediyimi dərhal anlayıram. Axı mən təzəyəm. Başqa dünyadan bu dünyaya ikicə il öncə, dostcandan otuz bir il sonra gəlmişəm. Bu dünyanın qaydaları ilə hələ də barışa bilmirəm. Dostcan isə elə bu dünyada doğulub, burda deyilən hər sözün çəkisini ürək ülgüsü ilə ölçür. Yaxşı ki üzə vurmur. Qadınlar qəribədir. Bizim dünyanın qadınları isə ikiqat qəribədir; hisslərdən tor qurmağın sirrini Tanrı qədər dərindən bilirlər.

«Məncə, Tanrı qadındır, dostcan», – susub susub deyir.

Bayaqdan bununçün susurmuş demək; neştəri aortama yeritmək üçün ən iti silah axtarırmış.

«Müdir sizi çağırır, deyir gəlin, iftarımızı açırıq, başçı da çatır», – uşaq, çanağına mikrofon yapışdırılmış saz səsilə canımı dostcanın çaynağından qurtarır.

---

[8] Göz rəng məlumatını üç müstəqil sensor kanalı (üçxromatlıq) ilə emal edib beyinə ötürür və insan bir milyona qədər rəng çaları görə bilir. Qadınların (ancaq qadınların!) cüzi bir hissəsi isə dörd sensor kanalına (dörd/tetra) xromatlıq) malikdirlər və onlar yüz milyon rəng çalarını seçə bilirlər.

* * *

İftar süfrəsinə çox adam toplaşıb. Onların kimliyini bilmək asan deyil, çünki səsləri çürük sap kimi dolaşıb düyün düşüb, çözmək olmur.

Bardaş qurub otururuq. Ətrafı dinləyirik.

Dostcan yavaşca qoluma toxunur, daha doğrusu, barmağını çiynimə dayayıb qolum boyu aşağı çəkir. Bu, bizim dünyamızda istehza işarəsidir.

– Nədir, dostcan? – soruşuram, – iftarın ruhu səni tutub? – mən də istehzaya salıram.

– Eşidirsən? – qulağıma deyir, – o başda bizdən danışırlar.

– Doğrudan? Nəyimizdən danışırlar? – boynumu qısıb çiyinlərimi qaldırıram. Biçimsiz küyü əlçimləyib səsləri ayırmaq istəyirəm, alınmır. Mən hələ bunu bacarmıram. Öyrənə bilməmişəm. O isə istədiyi səsin ucunu qulağının membranına bağlayıb asanca özünə tərəf çəkə bilir.

– Orda iki qara səs var, dostcan, – deyir, – biri çox iyrəncdir, bəlğəmi yara-yara gəlir. O biri səs isə ömür boyu gündən qaranlığa qaçan adamın səsidir, dinlə bir!

– Tuta bilmirəm, bağışla, dostcan, – deyirəm. Əlbəəl də acıqlandığını duyuram.

– Sənin siqaret yandırmağına gülürlər. Deyir, siqareti damağına qoyursan, iki barmağınla siqaretin ucundan tutursan, çeçə barmağınla çaxmağın alovunu tapırsan, siqaretin ucunu ora

aparıb alışdırırsan.

Dinmirəm. Mən bilən, doğru təsvir eləmir, iftardan sonra yoxlayaram.

Çayçı stəkanlara çay süzür. Kiminsə stəkanı aşır. Onun acıqlı «korsan?!» səsi çayçının «bağışla» sının kürəyini yerə vurur. Yeməkdən iyrənən adam kimi üzümü turşudub başımı geri atıram.

Sakitlik yaranır.

Dostcan qoluma toxunur: «Biz dünyanın üzdə olan vacib örnəkləriyik, gəl fəxr eləyək!» – kədər qarışıq istehza ilə deyir.

İki qonşum qadınların iftara oturmalarının şəriətdə məqbul sayılıb-sayılmaması barədə yarıpıçıltı mübahisə eləyir. Söhbət tezliklə namaz qılan fahişələrin Allah yanında yerlərinin olub-olmadığına burulur. «Fahişələr bunlardan xoşbəxtdir» – həmsöhbətlərdən biri «bunlardan» sözünü burnuna salıb deyir. Əminəm ki, o, başı ilə bizi göstərir.

* * *

Kiminsə «Başçı gəlir!» deməsi ilə söhbət yekunlaşır. Otağı bardaş qurub oturmuş iftarçıların ayağa durarkən diz tağalaqlarının şaqqıltısı bürüyür.

Başçı hamını salamlayır.

İftarçılar təlim görmüş əsgər alayı kimi xorla «Əleyküm salam!» deyir.

Müdir qonşu otaqdakılara «kətil verin!» bağırır.

Daş döşəmə üzərində xırçıltı ilə sürüşən kətilin səsi qulağımı deşib ətimi çimçəşdirir.

Müdir kətili işçisinin əlindən qapıb alan kimi tövşək səslə lütfkarlıq bildirən sözləri dalbadal düzür, hıqqıldaya-hıqqıldaya kətili başçının altına çəkir.

Başçı «bismillah» deyir. Ağzında nəsə çeynədiyindən, «s» səsi tüpürcəkli çıxır.

İftarçılar nizamsız çapana bənzəyən diz şaqqıltılarının müşayiəti ilə oturub yeməyə girişirlər.

– İftar yeyək, dostcan? – o, pilə kimi yumşaq təbəssümü ilə qulağıma pıçıldayır.

Nə dediyini anlayıram.

Məclisin o biri başında kimsə ramazan ayında tutulan orucun fəzilətləri haqda hədis danışır, amma onun səsi qulağıma ayran hortulutusuna, qaşıq çingiltisinə bükülüb boğuq-boğuq, buruq-buruq çatdığından, diqqətimi cəmləyib o səsi küydən ayıra bilmirəm.

Qonşularım yenə sözlərin bəzilərini burunlarına sala-sala danışırlar. «Deyəsən başçı xubdur, bayaqdan xurmaya girişib». O biri təsdiqləyir: «O həmişə hallı olur, bax, gör arada sifətini necə ləzzətlə ovuşdurur! Gözləri də qıpqırmızıdır».

Bir azdan qaşıqların boşqaba dəyən son cingiltisi kəsilir, hədis danışan adamın dediklərini aydın eşidirəm. O, şəriət buyruqlarının gözəlliyindən danışır, bunu qanmayanları günahlandırıb kafir adlandırır, tez-tez də başçıya tərəf baxır. Bunu başçının marçıltıya bənzəyən təqdir səsindən anlayıram.

– Allah kəbirdir, şəriət buyruqlarını pozan nankorların cəzasını tezliklə verəcək, – hədisçi belə deyir.

Yerdən «amin!» səsləri ucalır. Amin deyənlər arasında başçının da səsi var.

Hədisçi daha bəlağətlə danışır.

Arada başçı onun sözünü kəsir:

– Elə korafəhimləri biz özümüz də cəzalandıra bilərik.

Hədisçi başçının şəninə uzun-uzadı tərifl ər yağdırdıqdan sonra yenə ürəklərini, gözlərini qapayıb ilahinin qüdrətini görməyənləri lənətləyir.

Birdən başçı qəhqəh çəkir. Hamı susur. Nə baş verdiyini anlamağa çalışıram. Başçının qəhqəhəsi çox uzun sürür. O, arada sakitləşir, nəsə demək istəyir, amma beyninin qoşa gülüş oyuqcuğu yenidən qıcıqlanır və onu şaqqanaq çəkib gülməyə məcbur edir.

Axırda gülməyini birtəhər qısır, pıqqıldaya-pıqqıldaya: «Rəhmətlik atam deyərdi ki, kor Allaha necə baxırsa, Allah da kora elə baxır» – deyir.

Beynimdə başçının sözünə səmimi gülən iftarçılarla süni gülənlərin nisbətini hesablayıram.

Dostcan qoluma çırtma vurur. Bu, «getdik» işarəsidir.

Yavaşca ayağa dururam. Yandaşım qolumdan yapışır: «Məclis hələ bitməyib, başçı durmamış hara dursunuz?!»

Onun əlini qolumdan aralayıram.

Çıxışıda ayaqqabılarımızı axtarıb tapana qədər iftarçılar sakitləşir.

Başçının yenidən qəhqəh çəkdiyini eşidirəm.

– Gecənin bu aləmində nə ədəbazlıqdır belə?! Ey, sizinləyəm, qara eynəklilər!

Sualın bizə aid olduğunu indi anlayıram.

Biz eynəklərimizi çıxardırıq. Eynəkli əllərimiz bir-birinə toxunur.

Başqan içini çəkir:

– Siz ki korsunuz!!!

Mən gözlərimin yerində iki boş dərin oyuq görən başçının ağzının necə əyildiyini aydın görürəm.

– Biz kor deyilik, cənab başçı, – dostcan üçqatlı səsi ilə cavab verir və mən onun səs çalarlarının ayrıldığını, hər bir çaların partlamaq həddinə qədər şişdiyini duyuram, – biz gecəgörənlərik!

İftarçıların narazı küyünü eşidirik.

Çıxırıq. Arvadını oynaşla tutub, kimi birinci öldürəcəyini götür-qoy eləyən kişi kimi qəzəblə susuruq.

O, məni evinə qonaq çağırır. Bu, bilirəm, sadəcə, xorun anlaqsızlığını birlikdə dəfn etmək üçündür.

Otağa girən kimi işığı yandırır.

– İşıq nəyə lazım, dostcan?.. Artıq xərcdir, – deyirəm.

– Nə danışırsan, dostcan?! – mən həmişə işığı yandırıram, sən də yandır, yoxsa dünya bizi ölmüş bilər.

Tural Turan. Xalça oğrusu

Məscidin həyətinə toplaşmış kənd camaatı qaşlarını düyünləyib bir qolu polis serjantının biləyinə qandallanmış Sayalı arvada baxırdı. Sayalı arvad başını yerdən qaldırmırdı. Arabir şalını gözünün üstünə çəkirdi ki, ona baxan qonum-qonşuları ilə göz-gözə gəlməsin.

Camaatı məscidin önünə Axundun köməkçisi Yelli Möşü küyləmişdi. Axundunmu tapşırığı idi ya öz yastığının altından çıxmışdı, orasını bilmirəm. Qarayallı camaatına da bir hay bəsdi. Hamı hoqqa-mərəkə armağıdı.

Nəsə olsa, camaat işini-gücünü atır, tamaşaya durur, kişilər çayçıda, arvadlar yolda-yolaqda, bulaq üstə bir həftə həmin hadisədən gap edir…

Ta təzə hoqqa-mərəkə, tamaşa qurulana kimi…

Kəndin cavan dindarları bir qolu qandallı arvada atmaca atmağa başladılar:

– Əxlaxsızın biri, əxlaxsız!

– O göydəki Allah sənin əllərini qurudajax!

– Tutduğu işə bax bir!

– Ayıbına kor olmuş!

İncəvara, məscidin çəpərinin o tayında qalmış bulaqbaşı, yol-yolaq arvadları dinmirdilər. Eləcə olub-bitənə baxırdılar. Hamını süzürdülər. Bəzən Sayalının danışığından bezib burnunu eşən Kalsühsün Qasıma baxırdılar, bəzən də yanqırları ətinə

batmış dırnağını yeyən Tərəkə Temiri süzüb irişirdilər…

Müstəntiq Tumarlı sözə başlamazdan əvvəl səsini arıtlamağa başladı. Udqundu. Camaatın səsi kəsildi. Dillərindən çıxanlarını çuval-çuval baxışlarına yüklədilər. Sayalı arvada zillənən o baxışları mənəm-mənəm deyən gönüqalın təlxək də həmin yükün altında arxı o tərəfə keçə bilməzdi.

Sonra müstəntiq Sayalı arvada birinci sualını verdi.

– Nə vaxt oğurladın xalçanı?

– Gecə birə işləmiş. Axund gedəndən sonra…

Axundun qaşları düyünləndi. Yumruğu sıxıldı. Sonra müstəntiqə baxıb əlini boşaltdı. Baxışlarını Sayalı arvaddan çəkib aşağı dikdi, sol əlindəki üzüyü ilə oynamağa başladı.

Kapitan Tumarlı isə camaatın baxışları altında sorğu-suala davam edirdi. Aranı yumşaltmaq üçün sualları da mollasayaq verməyə üz qoydu:

– Niyə oğurladın Allah evinin xalçasını?

– Evimiz soyuqdur. Üzr istəyirəm, uşaqlar körpədi. Balacanın beş yaşı var. Titrəşirdilər. Ürəyim dözmədi. Yoldaşım şəhiddi. Dörd ildir ki, ailəni mən dolandırıram. Səhərdən axşama kimi xəstəxanada oluram. Süpürgəçi işləyirəm. Uşaqlar da torpaq döşəməli damın altında qalır. Birdən ağlıma gəldi ki, məscidin xalçasından kəsib evə gətirim, uşaqların ayağının altına salım.

– Sonra gedib kəsib gətirdinq eləmi?

– Yox, birinci dəfəmə ürəy eləyə bilmədim. Qorxdum.

– Kimdən qorxdun?

– Allahdan, axunddan, dindarlardan, adamlardan, sizin

özünüzdən.

– Bəs sonra niyə qərarını dəyişdin?

– Balaca gədəmin üzünə baxdım. Gömgöy göyərmişdi. Sanki tanrı da dedi ki, bu uşağa yazıqdı, nətəri anasan, dur get kəs…

– Bəs niyə kəsirdin, bütöv aparardın də?

– Artığı mənim nəyimə lazım – bir anlıq duruxur – hamı bilir, komamız dördün-üçə bir daxmadı. Başımdakı şalımı açdım, bu şalla evi metrələdim. Yeddi şal uzunu gəldi, beş şal eni… Cehizlik yorğan qayçımı çəkməcədən götürüb getdim məscidə. Elə girişdəncə kəsdim. Ayağımda palçıqlı qaloş vardı deyə çox içəri keçmədim. Xalçanı evə gətirdim. Sonra da ürəyim durmadı. Gedib «uçasqovıya» dedim…

Müstəntiq tutuldu. Camaatın zilə qalxan tənəli sözlərini bir qədər yumşaltmaq üçün ikinci sualını verdi:

– Bəs qorxmadınmı Allahın qəzəbinə tuş gələrsən?

Sayalı arvadın çiyinləri titrədi. Bir qədər duruxdu. Xəfifcə udqunduqdan sonra aramla dilləndi:

– Bu qırx beş ildə Tanrıdan üç metrlik xalça oğurlamışam. Allah böyühdü, rəis. Bağışdıyar yəqin… Məni bağışlamasa da, atasız tifillərimə görə keçər günahımdan… Kaş ərimi müharibəyə aparmıyeydılar, ölmüyəydi, bu gün mən yox, o çıxaydı camahatın qavağına…

Məscidin qabağına yığışan yaşlılar Sayalı arvadın sözün mıxını hara çaldığını o saat anladılar. Başları yorğun saat əqrəbləri təki ağır-ağır aşağı dikildi.

…Hamı susmuşdu. Sayalı arvadı polis maşınına mindirib

aparmaq istəyəndə başını qaldırıb məscidlə üzbəüz qəbiristanlığa – müharibədə həlak olmuş ərinin məzarına baxdı. Kişinin qəbri camaata arxasını çevirmişdi.

Elə o da arxadan dilləndi:

– Məni bağışla, kişi. Allahla bu gündən küsülüyük, uşaqlarımızı sənə tapşırıram.

Müstəntiq Sayalı arvadı polis maşınına mindirib apardıqdan sonra azan verildi. Dindarlar məscidə doluşdular. Sayalının tamaşasına gələn yaşmaqlı kənd arvadları isə evlərinə dağılışdı. Mən qoyunları xalxaldan açıb örüşə aparanda xalça oğrusunun ayağı qaloşlu körpələri hələ də məscidin qabağında torpağın üstündə oturub oynaşırdılar…

Fidan Vahid. Əyri kölgə

Babam Şaqaydan yarım kisə külmə tutub. Nənəm həyətdə deyinə-deyinə balıqları qızardır.

Süfrə başında əyləşiblər. Babam balıqların ətli, ağ yerlərinə baxıb nənəmə ağız büzür: sümüyü yaxşı qızarmayıb.

Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «Литрес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на Литрес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.